**PREZİDENT İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL EDİB**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popov, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**MEHRİBAN XANIM ƏLİYEVANIN ÇOXŞAXƏLİ FƏALİYYƏTİ AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTİNİN MƏNAFEYİNƏ XİDMƏT EDİR**



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli və çoxşaxəli fəaliyyəti milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanır. Bu fəaliyyət, eyni zamanda, respublikamızın tərəqqisinin sürətləndirilməsi və davamlı xarakter alması, ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsi...

➪ Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 fevral 2019-cu il, cümə / № 036 (5411). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunulub.

Ruslan Auşev Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ilə görüşlərindən məmnunluqla danışıb və Ulu öndərin xatirəsini daim yad etdiyini bildirib.

Prezident İlham Əliyev Ruslan Auşevin Azərbaycana səfərindən məmnunluğunu ifadə edib və onun Ulu öndərin xatirəsi ilə bağlı dediyi xoş sözlərə görə təşəkkürünü bildirib.

Ruslan Auşev Bakıda gördüyü inkişaf proseslərinin tədbir iştirakçılarında xoş təəssürat yaratdığını vurğulayıb, onların bu tədbirdə iştirak etmək üçün böyük məmnuniyyətlə Bakıya gəldiklərini deyib.



## Prezidentin iş günü

Prezident İlham Əliyev Ağdam rayonunun Kolqışlaq-Mirəşelli-Əhmədağalı-Çıraxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında Fərman imzalayıb.

**Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradılır**

Azərbaycanın zəngin "Şahdəniz" yatağının resurslarının işlənməsinə və Avropaya nəqlinə hesablanan Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması istiqamətində daha bir mühüm addım atılıb. Belə ki, 2019-cu il 20 fevral tarixində Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib. Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirlərinin və müxtəlif qurumların təmsilçilərinin, o cümlədən...

➪ Bax səh. 2

**Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında elektron kitabxana yaradılıb**




Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında elektron kitabxana (ebook.yap.az) yaradılıb. Elektron kitabxanada müxtəlif sahələr üzrə çoxsaylı nəşrlər yerləşdirilib. Belə ki, e-kitabxanada müxtəlif kateqoriyalar üzrə...

➪ Bax səh. 5



**AZƏRBAYCAN İLƏ DÜNYA BANKI ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLİB**

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 21-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşüb. AZƏRTAC xəbər verir ki...

➪ Bax səh. 4

**XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİ QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ YAD EDİLİB**

Fevralın 21-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbir təşkil edilib. AZƏRTAC xəbər verir ki, müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlanan tədbirdə QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı və onun başvermə səbəbləri, şəhərin işğalı zamanı dinc əhaliyə qarşı törədilmiş genişmiqyaslı qanlı hərbi cinayət barədə ətraflı məlumat verib. Bildirilib ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələri Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini yerlə-yeksan edib, dinc sakinləri məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktını törədiblər. Erməni vandalları işğal etdikləri ərazilərimizdə bütün maddi-mənəvi abidələrimizi yerlə-yeksan ediblər. Erməni işğalçıları bu gün də atəşkəsi mütəmadi olaraq pozur, dinc əhalini atəşə tuturlar. QMİ sədri qeyd edib ki, bütün dünyanın...

➪ Bax səh. 6



**BAŞ NAZİRİN MÜAVİNİ ƏLİ ƏHMƏDOV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞÜB**

Fevralın 21-də Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Merci Tembonla görüşüb. Görüşdə Baş nazirin müavini keyfiyyətli səhiyyə xidmətinin...

➪ Bax səh. 4

***Elmar Məmmədyarov*: Azərbaycan Respublikası UNESCO-nun dəyərlərinə və prinsiplərinə sadiqdir**

...UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 1994-cü il fevralın 21-də Ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamı ilə yaradılıb. Həmin Sərəncamla Milli Komissiya Xarici İşlər Nazirliyi yanında fəaliyyətə başlayıb. 2005-ci il sentyabrın 15-dən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı uyğun olaraq, Milli Komissiya Azərbaycan Respublikasının Prezidenti yanında statusu ilə fəaliyyətini davam etdirir. Dövlətimizin başçısının...

➪ Bax səh. 6

**Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə təntənəli mərasim keçirilib**

Fevralın 21-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində sovet qoşunlarının Əfqanıstandan...



➪ Bax səh. 4

**ATƏT məkanında münaqişələrin həlli yalnız konstruktiv dialoq sayəsində mümkündür**

ATƏT Parlament Assambleyasının (ATƏT PA) 18-ci qış sessiyası çərçivəsində Daimi komitənin iclasında ATƏT PA-nın prezidenti...




➪ Bax səh. 4

**DTX-nin arxiv fondlarında saxlanılan tarixi əhəmiyyətli sertifikatların təqdim olunması ilə əlaqədar tədbir keçirilib**

Bu il martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi tamam olur. Bu əlamətdar tarix münasibətilə...



➪ Bax səh. 5

**KİV rəhbərləri Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti ilə yaxından tanış olublar**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı...



➪ Bax səh. 7

# Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradılır

**Prezident İlham Əliyev:** *Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk*

*Azərbaycanın zəngin "Şahdəniz" yatağının resurslarının işlənməsinə və Avropaya nəqlinə hesablanan Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması istiqamətində daha bir mühüm addım atılıb. Belə ki, 2019-cu il 20 fevral tarixində Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib. Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirlərinin və müxtəlif qurumların təmsilçilərinin, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottingerin iştirak etdikləri tədbirdə layihənin icrası, eləcə də beynəlxalq komandanın əməkdaşlığının perspektivləri ilə bağlı aktual məsələlər müzakirə edilib. Toplantıda nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev layihədə iştirak edən dövlətlərə, şirkətlərə, həmçinin beynəlxalq maliyyə qurumlarına göstərdikləri səylərə görə təşəkkürünü bildirərək diqqəti bir sıra vacib məqamlara yönəldib. Cənub Qaz Dəhlizinin regional və qlobal önəmini diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb ki, biz Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacağıq.* ***"Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk",*** *- deyə dövlət başçısı bildirib.*



## AZƏRBAYCAN 1994-CÜ İLDƏN BAŞLAYARAQ ÖLKƏYƏ MİLYARDLARLA DOLLAR XARİCİ SƏRMAYƏ CƏLB ETMƏYƏ NAİL OLUB

Məlumdur ki, hazırda Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasında yer alır. Ölkəmiz özünün iqtisadi və maliyyə müstəqilliyini tam təmin edib ki, bu da siyasi müstəqilliyimiz, milli maraqlarımızın qətiyyətlə qorunması baxımından çox önəmlidir.

Müstəqil Azərbaycanın davamlı dinamik inkişafını şərtləndirən bir neçə fundamental amil sadalamaq mümkündür ki, onların içərisində Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı yeni neft strategiyasının uğurla reallaşdırılmasını və bunun sayəsində ölkəmizə böyük həcmlərdə sərmayələrin cəlb olunmasını xüsusi qeyd etmək lazımdır. Müdrik siyasətçi olan Ulu öndər Heydər Əliyev yeni neft strategiyasını işləyib hazırlayarkən respublikamızda onilliklər ərzində formalaşan ənənələri və mövcud potensialı əsas tutaraq qarşıya çox mühüm hədəflər qoymuşdu. Yeni neft strategiyasını səciyyələndirən əsas cəhət isə ondan ibarətdir ki, burada milli maraqlar qırmızı xətt kimi müəyyənləşdirilib. Zəngin neft-qaz resursları Azərbaycanın mənafeyinə, ölkənin iqtisadi qüdrətinin artmasına, yüksək səviyyəli insan kapitalının formalaşmasına xidmət etməlidir. Yeni neft strategiyasında bu kimi məqsədlər çox vacib çağırışlar kimi qarşıya qoyulub.

*"Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır"*

Başlanğıcda müstəqil Azərbaycanın dinamik, hərtərəfli inkişafını hədəfləyən yeni neft strategiyasının reallaşdırılmasına çox ciddi təhdidlər var idi. Daxildəki və xaricdəki bir sıra qüvvələr Azərbaycanın inkişafını istəmirdilər. Buna görə də ölkədə sabitliyi pozmağa, karbohidrogen ehtiyatlarının işlənməsi məqsədilə xarici investisiyaların cəlb olunmasının qarşısını almağa çalışırdılar. Bədxah qüvvələr öz məkrli planlarını həyata keçirmək üçün ən müxtəlif məqamları nəzərə alaraq fərqli ssenarilər hazırlamışdılar. Lakin Ulu öndər Heydər Əliyev Öz qətiyyəti və müdrikliyi ilə Azərbaycanı inkişafdan saxlamağa hesablanan bütün bədxah ssenarilərin qarşısını məharətlə aldı. Ulu öndər növbəti dəfə xalqına bağlılığını, əlçatmaz Lider keyfiyyətlərini nümayiş etdirdi və müstəqil Azərbaycanın zəfər salnaməsinin əsasını qoydu.

1994-cü il sentyabrın 20-də müstəqil Azərbaycanın həyatında tarixi hadisə baş verdi - Ulu öndər Heydər Əliyevin səyləri sayəsində Bakıda dünyanın altı dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi"nin imzalanması Ulu öndər Heydər Əliyevin müstəsna xidməti idi. Çünki yuxarıda bəhs olunan çətinliklər fonunda xarici şirkətlər Azərbaycana sərmayə yönəltməkdən çəkinirdilər. Uzaqgörən siyasətçi Heydər Əliyev xarici investorların Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənməsinə irihəcmli sərmayələr yönəltmələrinə nail oldu. Azərbaycanın bu gün beynəlxalq miqyasda uğurlu model kimi qəbul edilən davamlı inkişaf strategiyasının əsası da məhz "Əsrin müqaviləsi" ilə qoyulub. Prezident İlham Əliyev 1994-cü ildən etibarən yeni neft strategiyasının uğurla reallaşdırılması çərçivəsində Azərbaycana gələn sərmayələrin ölkəmizin inkişafında mühüm rol oynadığına diqqət çəkərək bildirib: **"Cənub Qaz Dəhlizi ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir. O zaman Azərbaycan nəhəng "Azəri-Çıraq-Günəşli" neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu, bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cü il, əslində, Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman yalnız üç il idi ki, gənc müstəqil dövlət idi və iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik".**

*"Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik"*

Artıq 25 ildir ki, ölkəmizdə yeni neft strategiyası uğurla həyata keçirilir. 2017-ci ildə Azərbaycanda iki milyard ton neft hasil edilməsi təntənəli şəkildə qeyd olundu. Bu həcmin 700 milyon tonu müstəqillik dövründə hasil edilib ki, onun da 460 milyon tondan çoxu "Əsrin müqaviləsi" ilə yaradılan konsorsiumun payına düşür.

Məlumdur ki, Azərbaycan yeni iqtisadi şəraitdə qeyri-neft sektorunda istehsal və ixrac imkanlarının artırılmasını hədəfləyib. Bu məqsədlə respublikamızda neftdənkənar iqtisadiyyat həm siyasi, həm də maddi cəhətdən güclü şəkildə dəstəklənir. Bununla belə, perspektivdə də enerji sektoru milli iqtisadiyyatımızın lokomotivi rolunda çıxış edəcək. Prezident İlham Əliyev bunu nəzərə çatdıraraq deyib ki, enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması deyilənləri bir daha təsdiqləyir. Yeni Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb.

Biz yuxarıda "Əsrin müqaviləsi"nin müstəqillik illərində ölkəmizin inkişafında oynadığı mühüm rol barədə qısa söhbət açdıq. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişdə də Azərbaycanın milli maraqları maksimum dərəcədə nəzərə alınıb. Yeni Saziş çərçivəsində "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılıb. Sənədə əsasən, xarici investorlar tərəfindən ölkəmizə 3,6 milyard dollar həcmində bonus ödəniləcək və artıq prosesə başlanılıb.

"Əsrin müqaviləsi"ndən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanıb. Xatırladaq ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanıb. O vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək asan məsələ deyildi. Ancaq 2018-ci ildə Cənub Qaz Dəhlizinin açılışı təsdiqlədi ki, Azərbaycan zamanında nə qədər müdrik addım atıb. Beləliklə, Azərbaycan özünü dünyaya həm də qaz ölkəsi kimi təqdim edir. Cənub Qaz Dəhlizi layihəsinin resurs mənbəyi rolunda məhz "Şahdəniz" qaz yatağı çıxış edir. Ehtiyatları 1 trilyon kubmetrdən çox qiymətləndirilən "Şahdəniz" dünyanın ən böyük qaz yataqlarından biridir. Özlüyündə Cənub Qaz Dəhlizi investisiya tutumu kifayət qədər böyük olan bir layihədir. Bu layihənin icrasına bütövlükdə 45 milyard dolları qədər sərmayə qoyuluşu gözlənilir. Qeyd edək ki, Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində dəyərləndirilir.

## UĞURLA REALLAŞDIRILAN CƏNUB QAZ DƏHLİZİNİN DÖRD SEQMENTİNDƏN ÜÇÜ ARTIQ HAZIRDIR

Öz miqyasına görə kifayət qədər geniş olan Cənub Qaz Dəhlizi çox haqlı olaraq XXI əsrin qlobal layihəsi kimi səciyyələndirilir. Yuxarıda qeyd etdiyimiz kimi, zəngin "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsinə və Azərbaycan qazının Avropa ölkələrinə çatdırılmasına hesablanan bu layihənin təşəbbüskarı rolunda məhz ölkəmiz çıxış edib. Məlumdur ki, Avropanın getdikcə artan tələbatını ödəmək üçün yeni enerji mənbələri lazımdır. Azərbaycan isə "qoca qitə"nin bu ehtiyacını qarşılamağa qadir ölkədir. Azərbaycan reallıqları nəzərə alaraq yeni qazötürücü infrastrukturun - Cənub Qaz Dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış etdi. Təbii ki, müxtəlif maraqları uzlaşdırmaq, hamını ortaq məxrəcə gətirmək asan deyildi. Bununla belə, ölkəmiz güclü siyasi iradə ortaya qoydu və yeni layihəyə tərəfdaşlar cəlb etməyə nail oldu.

*"Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi - biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar "Şahdəniz" yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi"*

Təxminən 3500 kilometr məsafədə uzanaraq açıq dənizə çıxışı olmayan Azərbaycanı Aralıq və Adriatik dənizləri ilə birləşdirən layihə bir vaxtlar çoxlarına xəyal kimi görünsə də, artıq reallıqdır. 2018-ci il 29 may tarixində Bakıdakı Səngəçal terminalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın və bir sıra digər dövlətlərin, həmçinin Avropa İttifaqının yüksək səviyyəli rəsmilərinin iştirakı ilə ayrı-ayrı mühüm parametrləri baxımından strateji önəm daşıyan Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib. Respublikamızın zəngin "Şahdəniz" yatağından çıxardılacaq "mavi yanacaq" bu kəmərlə daşınaraq regiondakı və Avropadakı istehlakçılara çatdırılacaq.

Cənub Qaz Dəhlizinin icrasına 2015-ci ildə Bakıda başlanılıb. İlk dəfə idi ki, Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlıq tələb edən layihəyə start verirdi. Cənub Qaz Dəhlizi 4 mühüm seqmentdən ibarətdir. Bura "Şahdəniz" yatağının işlənməsi, genişləndirilmiş Cənubi Qafqaz boru kəməri, TANAP və TAP layihələri daxildir. Arxada qalan 5 il ərzində layihənin bütün seqmentləri üzrə böyük iş həcmi yerinə yetirilib. O cümlədən Azərbaycanda layihə çərçivəsində ilk qazın nəqlinə və sonradan hasilatın artırılmasına hazırlıq məqsədilə "Heydər Əliyev" və "İstiqlal" qazma qurğularından istifadə etməklə istismar quyuları qazılıb. "Şahdəniz Mərhələ 2" çərçivəsində əsas diqqət ildə əlavə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əldə etmək üçün hazırda istismar edilən lay intervallarında qalan ehtiyatlara yönəlib. "Şahdəniz Mərhələ 2"-yə bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platformasının, iki yarımdalma qazma qurğusundan qazılan 26 sualtı quyunun, suyun 550 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda sualtı boru kəmərlərinin inşası və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir. Nəzərdə tutulan işlər tamamlandıqdan sonra Səngəçal terminalı dünyanın ən iri və müasir terminallarından birinə çevrilib.

Ötən il Cənub Qaz Dəhlizinin daha bir mühüm seqmentinin - Trans Anadolu Qaz Boru Kəmərinin (TANAP) inşası tamamlandı. 2018-ci il 12 iyun tarixində Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Qeyd edək ki, Avropaya alternativ qaz nəqli infrastrukturunun mühüm halqası olan TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

Uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

TANAP Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

*"Cənub Qaz Dəhlizi ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir"*

Cənub Qaz Dəhlizinin digər bir seqmenti olan Trans Adriatik Boru Kəməri (TAP) seqmenti üzrə işlər də uğurla davam etdirilir. TAP TANAP layihəsinin davamı kimi seçilib. Azərbaycan qazı məhz TAP vasitəsilə Avropanın mərkəzi ölkələrinə çatdırılacaq. Hazırda bu seqment üzrə işlərin 87 faizi tamamlanıb. Prezident İlham Əliyev yeni qaznəqledici infrastrukturun yaradılması istiqamətində işlərin uğurla getməsindən məmnunluğunu bildirib. **"Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi - biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar "Şahdəniz" yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir",** - deyə dövlət başçısı vurğulayıb.

Cənub Qaz Dəhlizinin hər 4 seqmenti üzrə işlərin uğurla getməsini şərtləndirən amillər sırasında beynəlxalq komandanın səylərini xüsusi qeyd etmək lazımdır. Avropanın enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyan Cənub Qaz Dəhlizinə indiyədək Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya kimi ölkələr qoşulub. Eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro perspektivdə layihəyə qoşulmaq niyyətlərini bildiriblər. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısına Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələrin də qatılması bu layihəyə maraq göstərən dövlətlərin sayının getdikcə artdığını təsdiqləyir. Layihənin icrasında Azərbaycanın beynəlxalq brendə çevrilən SOCAR şirkəti, BOTAŞ və BP kimi transmilli şirkətlər iştirak ediblər. Beləliklə, deyə bilərik ki, Cənub Qaz Dəhlizinin icrasına ümumi məqsədlər naminə çalışan vahid komanda cəlb olunub.

## ŞAXƏLƏNDİRİLMİŞ NƏQL MARŞRUTLARI SAYƏSİNDƏ AZƏRBAYCAN VACİB TRANZİT ÖLKƏYƏ ÇEVRİLİB

Azərbaycanın müasir çağırışlar və reallıqlar nəzərə alınmaqla hazırlanan yeni neft strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Marşrutların şaxələndirilməsi bu gün Azərbaycanın müstəqil enerji siyasəti həyata keçirməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir. Prezident İlham Əliyev Azərbaycanın enerji ehtiyatlarının nəqli marşrutlarının şaxələndirilməsi ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatdığını vurğulayaraq deyib: **"Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi".**

İndiyədək Azərbaycan güclü siyasi iradə nümayiş etdirərək bir neçə nəql marşrutunun yaradılmasına nail olub. 1990-cı illərin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bakı-Tbilisi-Ceyhanın istifadəyə verilməsi sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdilər. Eyni zamanda, yeni nəql marşrutundan faydalanan Azərbaycan öz ixracını əhəmiyyətli dərəcədə artırmağa nail oldu. Əlamətdar haldır ki, bu gün Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar. Belə ki, Xəzərin şərq sahilində yerləşən digər ölkələr tərəfindən hasil edilən neft də artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Beləliklə, Azərbaycan bu gün etibarlı tranzit ölkə kimi qonşu dövlətlərə öz imkanlarını təqdim edir. Prezident İlham Əliyev qürur hissi ilə bildirib ki, Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Beləliklə, Azərbaycan ilk dəfə olaraq beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi.

Bu məqamda vurğulamaq yerinə düşər ki, enerji mənbələrinin və marşrutların şaxələndirilməsi Avropanın istehlakçı ölkələri üçün də strateji önəm daşıyır. Cənub Qaz Dəhlizi Avropa ölkələrinin enerji təminatında yeni imkanlar açaraq, qaz tədarükü mənbələrini şaxələndirməyə, yeni alternativ marşrutlardan istifadə etməyə imkan yaradacaq.

**Mübariz ABDULLAYEV**

# Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edir

*Azərbaycanın Birinci vitse-prezidenti ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb*

*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli və çoxşaxəli fəaliyyəti milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanır. Bu fəaliyyət, eyni zamanda, respublikamızın tərəqqisinin sürətləndirilməsi və davamlı xarakter alması, ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsi, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Mehriban xanım Əliyeva ölkəmizi beynəlxalq miqyasda layiqincə təmsil edən, öz fəaliyyəti ilə Azərbaycanın davamlı inkişafına müstəsna töhfələr verən ictimai-siyasi xadim kimi tanınır. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi xadim kimi portret cizgilərini tamamlayan ştrixlər kifayət qədər zəngindir. Mehriban xanım Əliyeva hələ millət vəkili kimi fəaliyyət göstərərkən xalqa və dövlətə ləyaqətlə xidmət edərək milli maraqları daim üstün tutub, sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Məhz buna görə də seçicilər Mehriban xanım Əliyevanın millət vəkili kimi fəaliyyətini rəğbətlə qarşılayaraq yüksək qiymətləndiriblər. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr uğurla həyata keçirilib. Mehriban xanım Əliyeva, eyni zamanda, Milli Məclisdə Amnistiya aktlarının qəbul olunması təşəbbüsü ilə çıxış edib və bunun sayəsində minlərlə məhkum azadlığa qovuşub, yenidən cəmiyyətə inteqrasiya olunub. Bununla yanaşı, Yeni Azərbaycan Partiyasının (YAP) V Qurultayında Mehriban xanım Əliyevanın partiyanın Sədr müavini seçilməsi partiya və cəmiyyət üçün əlamətdar olmaqla yanaşı, YAP-ın və dövlətimizin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olub.*







Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən, Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması isə yuxarıda sadalanan milli və ictimai məzmunlu işlərin, xalqa xidmət fəlsəfəsinə söykənən çoxşaxəli və səmərəli fəaliyyətin qanunauyğun nəticəsidir. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının siyasi tarixində ilk dəfə yaradılmış Birinci vitse-prezident postunda uğurla fəaliyyət göstərir. Mehriban xanım Əliyevanın fəaliyyəti, onun tərəfindən irəli sürülən təşəbbüslər və reallaşdırılan layihələrin nəticələri həm Azərbaycanda, həm də beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir.

### AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİNƏ XÜSUSİ DİQQƏT GÖSTƏRİR

Ötən iki ildə Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim sosial məsələlərin həllinə xüsusi diqqət göstərib, mühüm təşəbbüslərlə çıxış edib. Onun təşəbbüsü ilə genişmiqyaslı və ictimai əhəmiyyətli layihələr müvəffəqiyyətlə həyata keçirilir. Əlbəttə, əsas diqqətini sosial məsələlərin, xüsusilə də əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi bu baxımdan xüsusi vurğulanmalıdır. Bəhs olunan müşavirədə müvafiq qurumlar qarşısında bu sahədə görüləcək işlərlə bağlı konkret vəzifələr qoyan Mehriban xanım Əliyeva yeni mənzillərin, yeni binaların tikilməsi və inşa olunan binaların keyfiyyət standartlarına tam cavab verməsi ilə bağlı göstəriş verdi. İlkin mərhələdə dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin iş yerləri ilə təmin etmək vəzifəsi qarşıya qoyuldu. Qısa zaman ərzində Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməlinin qoyulması, qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillərin verilməsi, iş adamlarının yardımı ilə 214 ailənin yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülməsi, eyni zamanda, Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda yeni binaların istifadəyə verilməsi ilə daha 725 məcburi köçkün ailəsinin mənzil şəraitinin yaxşılaşdırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə icra edildiyini, görülən işlərin əhəmiyyətini göstərir.

Bundan başqa, Mehriban xanım Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi də xüsusi qeyd edilməlidir. Əlbəttə, sadalananlar Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil, amma bütün bunlar Mehriban xanım Əliyevanın cəmiyyətin həssas təbəqəsinin problemlərinin həllini diqqət mərkəzində saxladığını göstərməklə yanaşı, onun fəaliyyətinin humanizm və vətənpərvərlik prinsiplərinə söykəndiyini əks etdirir.

### MEHRİBAN XANIM ƏLİYEVANIN RƏHBƏRLİK ETDİYİ HEYDƏR ƏLİYEV FONDU ÖLKƏ MİQYASINDA VƏ BEYNƏLXALQ MÜSTƏVİDƏ FƏALİYYƏTİNİ UĞURLA DAVAM ETDİRİR

Xüsusi olaraq vurğulanmalıdır ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli liderimizin ideyalarına əsaslanır, Azərbaycanın inkişafına, milli məqsədlərin həyata keçirilməsinə müstəsna töhfələr verir. Fondun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli - layiqli töhfəsini verir.

Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində də əhəmiyyətli təşəbbüslər irəli sürülür və müvafiq layihələr uğurla reallaşdırılır. Başqa sözlə, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Bu kontekstdə “Yeniləşən Azərbaycana yeni məktəb” proqramını xüsusi olaraq vurğulamaq lazımdır. Qeyd edək ki, bu proqramın müvəffəqiyyətlə icra olunması nəticəsində ölkəmizdə yeni məktəb binaları tikilərək istifadəyə verilib, müxtəlif təhsil ocaqlarının maddi-texniki bazası yaxşılaşdırılıb, eləcə də təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfələr verilib. Bununla yanaşı, Heydər Əliyev Fondunun dəstəyi ilə paytaxt Bakıda və regionlarda çoxsaylı uşaq bağçaları, körpələr evi, xüsusi təyinatlı uşaq müəssisələri əsaslı şəkildə və yüksək səviyyədə təmir olunub, bütün növ avadanlıqlarla təchiz edilib. Fondun “Uşaq evləri və internat məktəblərinə dəstək” layihəsi çərçivəsində çoxsaylı internat və uşaq evləri yenidən qurularaq istifadəyə verilib. Bütün bunlar Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uşaqların, yeniyetmələrin təhsili və sağlamlığı üçün reallaşdırdığı layihələrin böyük əhəmiyyətini ortaya qoyur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün çoxmənzilli yaşayış binalarının inşa olunması da xüsusi əhəmiyyətə malikdir. Fond, eyni zamanda, bu vaxta qədər sağlamlıq müəssisələrinin inşası və yenidən qurulması, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin yaradılması, diabetli, talassemiyalı xəstələrə qayğı və onların müalicəsinin təşkil edilməsi, qanvermə aksiyalarının keçirilməsi və bu kimi digər mühüm işlərin altına imza atıb.

Mehriban xanım Əliyeva həm də mədəniyyətimizin, incəsənətimizin, tarixi irsimizin böyük hamisi və təbliğatçısıdır. Təsadüfi deyil ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu, eyni zamanda, milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir, eləcə də Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə çatdırılır.

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də məqsədyönlü və ardıcıl iş aparır. Xüsusilə də Fondun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaratdığı internet portalı, müxtəlif dillərdə hazırladığı “Qarabağ həqiqətləri” adlı bukletlər dünya ictimaiyyətinə problemin səbəbləri haqqında kifayət qədər məlumat çatdırıb. Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda “Xocalı soyqırımı” filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar təqdim olunur. Şübhəsiz ki, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə əsası qoyulan “Xocalıya ədalət!” beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Təsadüfi deyil ki, məhz bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub. Bir sözlə, Heydər Əliyev Fondu tərəfindən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər səmərəli nəticələr verir.







Digər tərəfdən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Heydər Əliyev Fondunun bir sıra xarici ölkələrdə reallaşdırdığı layihələr dünyada tolerantlığın və multikultural dəyərlərin təbliği baxımından müstəsna əhəmiyyətə malikdir. Fond “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Pakistanda, Gürcüstanda, Misirdə, Rusiyada bir neçə məktəbin yenidən qurulmasına, Vatikanda Müqəddəs Roma katakombalarının və Strasburq Kafedral kilsəsinin bərpasına dəstək nümayiş etdirib. Bu həm də sivilizasiyalararası dialoqun təşviq olunması baxımından böyük önəm kəsb edir. Digər tərəfdən, Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar da xeyriyyəçilik tədbirləri sırasında yer alır. Eyni zamanda, Versal sarayının bir hissəsinin, Luvr muzeyi qalereyasından birinin bərpası, Həştərxanda Azərbaycan-Rusiya dostluq körpüsünün tikilməsi, Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması və digər layihələr də Heydər Əliyev Fondunun xeyriyyəçilik işlərini əks etdirən nümunələrdəndir.

### MEHRİBAN XANIM ƏLİYEVANIN YÜKSƏK TƏŞKİLATÇILIQ BACARIĞI SAYƏSİNDƏ ÖLKƏMİZİN NÜFUZLU TƏDBİRLƏRƏ UĞURLA EV SAHİBLİYİ ETMƏSİ AZƏRBAYCAN REALLIQLARININ TƏBLİĞİ BAXIMINDAN MÜHÜM ƏHƏMİYYƏTƏ MALİKDİR

Azərbaycan bu gün beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir. Bunu göstərən mühüm amillərdən biri ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin keçirilməsidir. Bu məqamda vurğulamaq yerinə düşər ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə uğurla ev sahibliyi edib. Məsələn, nüfuzlu “Eurovision-2012” beynəlxalq mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirilib, bu, ölkəmizin dünyada tanıdılması işinə xüsusi töhfələr verib. Eyni zamanda, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan “Bakı-2015” birinci Avropa Oyunları Təşkilat Komitəsinin yüksək əzmkarlığı sayəsində Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi. Oyunların möhtəşəm açılış və bağlanış mərasimləri dünyaya Azərbaycanın güclü potensialını, eləcə də yüksək nüfuzunu və qüdrətini bir daha nümayiş etdirdi. 2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərdi, nəticə etibarilə, Azərbaycan IV İslam Həmrəylik Oyunlarına da müvəffəqiyyətlə ev sahibliyi etdi. Beləliklə, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə uğurla keçirilən tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına müstəsna töhfələr verib.

### MEHRİBAN XANIM ƏLİYEVANIN ÇOXŞAXƏLİ FƏALİYYƏTİ BEYNƏLXALQ MÜSTƏVİDƏ OLDUQCA YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Mehriban xanım Əliyevanın fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Bunun göstəricisidir ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Fransanın “Şərəf legionu” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı, Rusiyanın Yüzillik Mesenatları Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut xaç” ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni onun dünyadakı nüfuzunun göstəricisidir.

Bütövlükdə, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edir. Azərbaycanın Birinci vitse-prezidenti ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb. Birinci vitse-prezident təyin olunduqdan bir neçə gün sonra “Rossiya 1” telekanalının “Vesti nedeli” proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışan Mehriban Əliyeva **“Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam”,** - deyə bildirirdi. Əminliklə söyləmək olar ki, o, buna müvəffəq olub. Başqa sözlə, bir daha vurğulamaq yerinə düşər ki, Mehriban xanım Əliyeva xalqımızın firavanlığı və qüdrətli dövlətimizin tərəqqisini naminə çoxşaxəli fəaliyyəti ilə Prezident İlham Əliyevin və ona inanan, böyük ümidlər bəsləyən insanların etimadını doğrultmağı bacarıb.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 21-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Əlaqələrin inkişafında yüksək səviyyəli görüşlərin mühüm rolu olduğunu vurğulayan Baş nazir bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladıb. Baş nazir bildirib ki, Dünya Bankı ilə Azərbaycan arasında kənd təsərrüfatı, təhsil, səhiyyə sahələrinin, məhkəmə sisteminin və digər sahələrin avtomatlaşdırılması, özünüməşğulluğun daha da inkişaf etdirilməsi üzrə layihələrə, əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılır. Bu layihələrin həyata keçirilməsinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib: **"Bu günə qədər Azərbaycan ilə Dünya Bankı arasında 50-yə yaxın layihə reallaşıb, 10-a yaxın layihə isə həyata keçirilməkdədir. Hesab edirəm ki, sizin ölkəmizə səfərinizin, keçirilən səmərəli görüşlərin bu əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyəti var".**

Novruz Məmmədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edən Mersi Tembon ölkəmizdə çox qısa müddət ərzində nail olunan inkişafdan məmnunluğunu bildirib. O, bu uğurların əldə olunmasında Azərbaycan dövlətinin və xalqının qətiyyətini xüsusi vurğulayıb və bunu təqdir etdiklərini deyib.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində infrastruktur layihələrinin icrasının dəstəklənməsinə, Azərbaycanda icbari tibbi sığorta sisteminin formalaşdırılmasına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Baş nazirin müavini Əli Əhmədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru ilə görüşüb



Fevralın 21-də Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Merci Tembonla görüşüb. Görüşdə Baş nazirin müavini keyfiyyətli səhiyyə xidmətinin təmin edilməsinin dövlətin həyata keçirdiyi sosial siyasətin təməl prinsiplərindən biri olduğunu bildirib. O, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar çox ciddi islahatların həyata keçirilməsinin zəruriliyi barədə qonaqlara məlumat verib.

Merci Tembon Dünya Bankı Qrupunun Azərbaycanla sıx və davamlı tərəfdaşlığa verdiyi əhəmiyyəti vurğulayaraq, ölkənin inkişaf proqramının icrasına, Azərbaycanın dayanıqlı iqtisadi artım istiqamətində irəliləməsi sahəsində hər cür dəstək göstərə biləcəklərini söyləyib. Regional direktor icbari tibbi sığorta ilə bağlı institusional strukturun formalaşdırılması və imkanlarının genişləndirilməsi, universal tibbi təminata çatmaq üçün səhiyyənin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsi, tibbi xidmətin təşkili və keyfiyyətinin yaxşılaşdırılması, o cümlədən səhiyyədə insan resurslarının gücləndirilməsi məqsədilə həm klinik, həm də idarəetmə sahəsində bacarıqların artırılması ilə bağlı hər cür dəstəyə hazır olduqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-İtaliya iqtisadi əməkdaşlığının genişləndirilməsi müzakirə olunub



Azərbaycan ilə İtaliya arasında investisiyaların təşviqi və qorunması haqqında yeni Saziş layihəsi hazırlanır.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Şahin Mustafayev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşüb. Görüşdə Ş.Mustafayev ölkələrimiz arasında əməkdaşlığın uğurla davam etdiyini, Prezident İlham Əliyevin İtaliyaya səfərləri, ötən ilin iyulunda İtaliyanın Prezidenti Sercio Mattarellanın Azərbaycana səfərinin, bu səfərlər çərçivəsində keçirilən görüşlərin, biznes-forumların və aparılan danışıqların əlaqələrin genişləndirilməsində mühüm əhəmiyyətini vurğulayıb.

İkitərəfli iqtisadi əlaqələrdən danışan nazir qeyd edib ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır və ixracda birinci yerdədir. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 10 faiz artaraq 6,2 milyard dollar təşkil edib. Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda İtaliyanın iştirakı ilə tvinninq layihələri icra olunur. İtaliya şirkətləri ölkəmizdə uğurla fəaliyyət göstərir. İtaliyanın "Maire Tecnimont" şirkətinin podratçısı olduğu "SOCAR Polymer" zavodunun bir neçə gün əvvəl açılışı olub. 2018-ci ildə bu zavodun birinci mərhələsinin açılışında hər iki dövlət başçısının iştirakı ikitərəfli əlaqələrin inkişafına verilən önəmin göstəricisidir.

Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki rolunu vurğulayan iqtisadiyyat naziri "Cənub Qaz Dəhlizi" layihəsinin, TANAP-ın ölkəmizin mühüm enerji təminatçısı kimi mövqeyini daha da möhkəmləndirdiyini, iştirakçı ölkələr arasında əməkdaşlığı gücləndirdiyini, Azərbaycan qazını İtaliyaya nəql edəcək TAP layihəsinin də uğurla icra olunduğunu vurğulayıb.

Bildirib ki, ölkəmizin artan tranzit imkanları, reallaşdırılan mühüm layihələr - "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tranzit-logistika əməkdaşlığının inkişafı üçün geniş imkanlar yaradır. Hazırda Azərbaycan ilə İtaliya arasında investisiyaların təşviqi və qorunması haqqında yeni Saziş layihəsi, iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan birgə Fəaliyyət Planı üzərində iş aparılır.

Ş.Mustafayev ölkəmizin qeyri-neft sektoru sahəsində İtaliya ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu, energetika, infrastruktur, nəqliyyat, İKT, turizm, kənd təsərrüfatı, şərabçılıq və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarını vurğulayıb. Nazir italyan iş adamlarını Azərbaycandakı əlverişli işgüzar şəraitdən yararlanmağa, sənaye parklarında və məhəllələrində maşınqayırma, məişət texnikası, yüngül sənaye, əczaçılıq sahələrində birgə müəssisələrin təşkilinə dəvət edib.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini A.Cioffi yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafında mühüm rolunu, səfərlər zamanı digər sahələr kimi, qeyri-neft sektoru sahəsində də əlaqələrin genişləndirilməsinə dair səmərəli müzakirələrin aparıldığını vurğulayıb. O, İtaliya şirkətlərinin Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində layihələrdə iştirak etməkdə marağını diqqətə çatdıraraq, əməkdaşlığın inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb.

# ATƏT məkanında münaqişələrin həlli yalnız konstruktiv dialoq sayəsində mümkündür




ATƏT Parlament Assambleyasının (ATƏT PA) 18-ci qış sessiyası çərçivəsində Daimi komitənin iclasında ATƏT PA-nın prezidenti Georgi Tsereteli təşkilatın ötən il ərzində göstərdiyi fəaliyyətə dair hesabatla çıxış edib. Sonra ATƏT PA-nın baş katibi Roberto Montella və büdcə nəzarətçisi Doris Barnett hesabat veriblər.

Ümumi müzakirələr zamanı çıxış edənlər Brexit, Ukraynadakı böhran, Suriyadakı Avropa vətəndaşlığına malik terrorçuların müvafiq ölkələrə təhvili, yaxın və orta mənzilli raketlərin ləğvi ilə bağlı razılaşmaya son qoyulması çərçivəsində təhlükəsizlik, ATƏT məkanında seçkilər və onların müşahidə edilməsi məsələlərinə toxunublar.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova çıxışı zamanı münaqişələrdən əziyyət çəkən regionlarda, xüsusilə Cənubi Qafqazda uzun illər ərzində itirilmiş imkanların yenidən əldə edilməsinin Helsinki Yekun Aktının prinsiplərinə tam riayət etmək şərti ilə yalnız konstruktiv dialoq vasitəsilə mümkün olduğunu vurğulayıb. Xüsusilə qeyd edilib ki, danışıqlar prosesində tərəflərin verdiyi son müsbət bəyanatlar Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun hər iki icmasını yaxınlaşdırmaq, xalqları sülhə hazırlamaq istiqamətində yeni impulsların yarandığını göstərir. Bahar Muradova vurğulayıb ki, parlamentarilər ATƏT məkanında bütün münaqişələrin sülh yolu ilə həlli üçün yaranmış yeni imkanlardan yararlanmalıdırlar.

İclasda, həmçinin bu il aprelin 7-8-də Kopenhagendə keçiriləcək büro iclası, iyulun 4-8-də Lüksemburqda keçiriləcək 28-ci illik iclas, oktyabrın 3-6-da Mərakeşdə planlaşdırılan payız sessiyası və eləcə də ATƏT Nazirlər Şurasının illik iclası çərçivəsində dekabrın 4-də Bratislavada keçiriləcək büro iclası, yaxın gələcəkdə mümkün tədbirlərin hazırlanması ilə bağlı məsələlər və proqram müzakirə edilib.

# Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə təntənəli mərasim keçirilib








Fevralın 21-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Silahlı Qüvvələrin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, veteranlar və əcnəbi qonaqlar iştirak ediblər.

Tədbirdə Ümummilli lider Heydər Əliyevin, Əfqanıstan müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək bildirib ki, digər müharibələrdə olduğu kimi, Əfqanıstan müharibəsində döyüşmüş azərbaycanlılar da çoxsaylı qəhrəmanlıq nümunələri göstəriblər. Sovet qoşunlarının tərkibində 9 mindən artıq azərbaycanlı bu müharibədə iştirak edib. Onlardan 208 nəfər həlak olub, 420 nəfər əlil olub, 7 nəfər isə itkin düşüb. Təsadüfi deyil ki, "Qırmızı döyüş bayrağı" ordeni ilə iki dəfə təltif olunan dörd döyüşçüdən biri azərbaycanlıdır. Həmçinin bir həmyerlimiz "Lenin" və "Qırmızı ulduz" ordeni, dörd nəfər iki dəfə "Qırmızı ulduz" ordeni ilə təltif olunub.

Xidmət rəisi deyib ki, bu müharibədə zəngin döyüş təcrübəsi toplamış azərbaycanlılar 1988-ci ildən 1994-cü ilədək Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda fəal iştirak ediblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdikləri fədakarlığa və şücaətə görə 17 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 36 nəfər "Azərbaycan bayrağı" ordeninə, müxtəlif dövlət təltiflərinə və medallara, həmçinin bir neçə hərbi qulluqçu general ali rütbəsinə layiq görülüb. Onların bir qismi döyüşlərdə həlak olub, itkin düşüb və ya sonradan vəfat ediblər.

Bu gün ölkəmizdə yeddi minə yaxın Əfqanıstan müharibəsi veteranının olduğunu vurğulayan Xidmət rəisi onların cəmiyyət həyatında fəal iştirak etdiklərini, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işinə və hərbi hazırlığına mühüm töhfələr verdiklərini deyib. Xüsusi qeyd olunub ki, xalqımızın Ümummilli lideri Heydər Əliyev də Əfqanıstan müharibəsi iştirakçılarına daim diqqət və qayğı göstərib. Ulu öndərin Əfqanıstan müharibəsinin iştirakçıları ilə görüşləri, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncamlar dahi rəhbərin bu qəbildən olan şəxslərə diqqət və qayğısının təzahürüdür. Əfqanıstan müharibəsinin veteranları və əlilləri Azərbaycanda müharibə iştirakçıları üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə hüququna malikdirlər. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də veteranlara, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarına yüksək diqqət və qayğı göstərir.

MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşev bildirib ki, başa çatmasından 30 il keçməsinə baxmayaraq, Əfqanıstan müharibəsi həyatımızın unudulmaz mərhələsi kimi yadda qalıb. Bu müharibə bizim üçün böyük həyat dərsi, fədakarlıq dövrü idi.

Azərbaycanda Əfqanıstan müharibəsi veteranlarına göstərilən hərtərəfli diqqət və qayğıdan məmnunluqla söz açan R.Auşev sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı ölkəmizdə keçirilən bu tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Əfqanıstan müharibəsinin başa çatmasının 30-cu ildönümü münasibətilə veteranları təbrik edərək bildirib ki, həmin müharibənin iştirakçıları qanlı döyüşlərdə əsl fədakarlıq göstərərək, üzərlərinə düşən məsul vəzifəni layiqincə yerinə yetiriblər. Həmin müharibədən qayıdan azərbaycanlı döyüşçülər dinc həyata başlamaq istəsələr də, təəssüf ki, yeni cəbhədə döyüşməli oldular. Əfqanıstan müharibəsinin azərbaycanlı veteranları doğma Vətənimizin ərazi bütövlüyü uğrunda Ermənistan silahlı qüvvələrinə qarşı vuruşmaq məcburiyyətində qaldılar. Torpaqlarımız uğrunda döyüşlərə ön sıralarda gedən igid döyüşçülər məhz Əfqanıstan cəbhəsinin odlu-alovlu yolunu keçmiş veteranlar idi.

Əfqanıstan müharibəsinin veteranlarının bu gün ləyaqətli vətəndaşlar kimi Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayan Prezident Administrasiyasının şöbə müdirinin müavini deyib ki, bu müharibənin iştirakçıları istər Azərbaycanda, istərsə də postsovet məkanında baş verən münaqişələrlə bağlı da obyektiv və qəti mövqe nümayiş etdirməlidirlər. Bu münaqişələrin aradan qaldırılması istiqamətində bütün veteranların, o cümlədən beynəlxalq təşkilatların rolu, mövqeyi qəti və aydın olmalıdır, onlar bu işə fəal töhfə verməlidirlər. Əgər bu gün Azərbaycan təcavüzə məruz qalıbsa, Ermənistan Azərbaycanın ərazilərini işğal edərək, bir milyondan çox vətəndaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salıbsa bu təcavüzə obyektiv qiymət verilməli, işğalçı ölkə qınanmalı, beynəlxalq səviyyədə layiqli cəzasını almalıdır. Biz bu məsələyə qiymət verilməsində tanınmış ictimai xadimlər kimi müharibə veteranlarının, o cümlədən vaxtilə Əfqanıstan müharibəsində iştirak etmiş şəxslərin fəallıq göstərəcəklərini gözləyirik.

Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə, veteranlara daim qayğı göstərdiyini, onların sosial-məişət problemlərinin həllini diqqətdə saxladığını vurğulayan Ə.Mehdiyev bildirib: **"Bu tədbirin keçirildiyi vaxt Prezident İlham Əliyev bir Fərman və bir Sərəncam imzalayıb. Fərman Əfqanıstan müharibəsində həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinə verilən Prezident təqaüdünün məbləğinin artırılması ilə bağlıdır. Sərəncam isə Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin fəaliyyətinin gücləndirilməsi məqsədilə bu quruma Prezidentin ehtiyat fondundan bir milyon manat vəsaitin ayrılması haqqındadır. Bu sərəncamlar Azərbaycan Prezidentinin Əfqanıstan müharibəsi veteranlarına ali diqqət və qayğısının daha bir təzahürüdür. Bu, həmçinin bir daha təsdiq etdi ki, Vətəni, xalqı üçün xidmət göstərən insanlara diqqət bundan sonra da davam etdiriləcək".**

Veteranlarımızın, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarının bu gün də Azərbaycanda mühüm vəzifələr yerinə yetirdiklərini diqqətə çatdıran Prezident Administrasiyasının rəsmisi bildirib ki, onlar gənc nəslin hərbi-vətənpərvərlik ruhunda yetişməsində, dövlətimizin sosial-iqtisadi inkişafında, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun artırılmasında daim fəallıqları ilə seçilirlər.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev müdafiə naziri, general-polkovnik Zakir Həsənovun tədbir iştirakçılarına və Əfqanıstan müharibəsi veteranlarına ünvanlanan təbrik məktubunu oxuyub.

Əfqanıstan müharibəsinin iştirakçısı, iki dəfə "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif olunmuş Şakir Əhmədov xatirələrini bölüşüb, ölkəmizdə onlara göstərilən yüksək diqqət və qayğıdan danışıb. O, Azərbaycanda gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işində veteranların daim fəal iştirak etdiklərini vurğulayıb. Ş.Əhmədov Əfqanıstan müharibəsi veteranlarının torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə daim hazır olduqlarını bildirib.

Çıxışlardan sonra Əfqanıstan müharibəsi, eləcə də ölkəmizdə bu müharibənin iştirakçısı olan veteranlara göstərilən dövlət qayğısından bəhs edən film nümayiş olunub.

Tədbir konsert proqramı ilə başa çatıb.

# DTX-nin arxiv fondlarında saxlanılan tarixi əhəmiyyətli sertifikatların təqdim olunması ilə əlaqədar tədbir keçirilib





Bu il martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi tamam olur. Bu əlamətdar tarix münasibətilə keçirilən tədbirlər çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasındakı "Şöhrət" muzeyində İkinci Dünya müharibəsi zamanı Avropa Müqavimət Hərəkatında göstərdikləri xüsusi şücaətə görə vaxtilə Fransa və İtaliya hökumətləri və hərbi komandanlıqları tərəfindən "Vətənpərvərin sertifikatı" ilə təltif edilmiş azərbaycanlı partizanların vərəsələrinə DTX-nin arxiv fondlarında saxlanılan həmin sertifikatlar (şəhadətnamələr) təqdim olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Milli qəhrəmanlar, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez, İtaliyanın Azərbaycandakı konsulu xanım Anna Mariya Bianҫi, DTX-nin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, İkinci Dünya müharibəsinin veteranları, azərbaycanlı partizanların övladları, "ASAN Könüllüləri" Təşkilatının üzvləri, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının nümayəndələri, Akademiyanın müəllim və kursantları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək abidəsi önünə əklil qoyublar. Qonaqlar "Şöhrət" muzeyində dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotostendlər və ekspozisiyalar ilə tanış olublar. Onlara Ulu öndərin təhlükəsizlik orqanlarına və Azərbaycana rəhbərlik etdiyi, SSRİ kimi nəhəng bir dövlətin siyasi olimpində təmsil olunduğu, müstəqil respublikamızın memarı və qurucusu kimi fəaliyyət dövrünü əhatə edən arxiv materialları, orijinal tarixi sənədlər barədə ətraflı məlumat verilib.

Tədbir faşizmə qarşı mübarizədə, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

DTX-nin arxiv-uçot idarəsinin rəisi Ceyhun İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan milli atıcı diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Polşa, Çexoslovakiya, Yuqoslaviya, Fransa, İtaliya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb.

Bildirilib ki, Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur.

Xüsusi vurğulanıb ki, İtaliya və Yuqoslaviyada partizan hərəkatında faşizmə qarşı mübarizə aparmış "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə ilə bağlı arxivlərdə saxlanılan materialları dahi rəhbər Heydər Əliyev hələ təhlükəsizlik orqanlarında işlədiyi dövrlərdə araşdırıb. Məhz Ulu öndərin gərgin səyi və əməyi, qətiyyəti sayəsində toplanmış sənədlər keçmiş SSRİ-nin ali rəhbərliyinə təqdim edildikdən sonra Mehdi Hüseynzadənin partizan hərəkatında göstərdiyi şücaət və qəhrəmanlıqlar nəzərə alınaraq, 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilib, onun haqqında bədii film çəkilib və əsərlər yazılıb. Ümummilli liderin respublikaya rəhbərliyi dövründə isə Bakıda Mehdi Hüseynzadənin möhtəşəm abidəsi ucaldılıb.

Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısı müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Prezident İlham Əliyevin hər il imzaladığı Sərəncamla 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımlar verilib, bu qəbildən olan insanlara xüsusi Prezident təqaüdünün aylıq məbləği daha da artırılıb. Bütün bunlar bir daha göstərir ki, müharibə veteranlarına qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Məhz bunun bariz nümunəsidir ki, dövlətimizin başçısı gənc nəslin Vətənə sədaqət və qəhrəmanlıq ruhunda tərbiyə edilməsində xüsusi əhəmiyyətini nəzərə alaraq, yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçı, əfsanəvi partizan Mehdi Hüseynzadənin anadan olmasının 100-cü ildönümünün qeyd olunması barədə ötən il Sərəncam imzalayıb. Bu Sərəncam xalqımız tərəfindən dövlətin təhlükəsizliyinin, Vətənin müdafiəsində və sərhədlərinin toxunulmazlığının keşiyində dayanan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan əsgəri üçün vətənpərvərlik nümunəsi, habelə şanlı qəhrəmanlıq tariximizə verilən ali qiymət kimi qəbul edilir.

C.İbrahimov qeyd edib ki, İkinci Dünya müharibəsi illərində ön cəbhədə faşizmə qarşı mərdliklə döyüşən azərbaycanlı əsgər və zabitlərin bir qismi müharibənin acı həqiqətlərini öz həyatlarında yaşamağa məcbur olublar. Bəzən qüvvələrin bərabər olmadığı qanlı döyüşlər zamanı alman ordusuna əsir düşənlər də olub. Lakin heç bir zaman düşmənə boyun əyməyən bir xalqın övladları kimi azərbaycanlıların əksəriyyəti sonradan müxtəlif əsir düşərgələrindən qaçaraq Avropanın ölkələrini əhatə edən silahlı Antifaşist Müqavimət Hərəkatına qoşulublar. Dili, dini, siyasi baxışları fərqli olan on minlərlə insanı birləşdirən bu hərəkat xalqların humanizm ideyaları və ümumbəşəri dəyərlər uğrunda mübarizəsində nadir tarixi nümunələrdəndir. Azərbaycanlı partizanlar müxtəlif millətlərin nümayəndələri ilə çiyin-çiyinə qəhrəmancasına vuruşaraq işğal olunmuş şəhər və kəndlərin, ölüm düşərgələrində saxlanılan əsirlərin azad edilməsində, faşist qoşunlarına məxsus strateji obyektlərin məhv edilməsində və digər döyüş əməliyyatlarında fəal iştirak ediblər. Həmin illərdə qəhrəmanlıqlar göstərmiş digər həmyerlimiz İtaliyanın ali hərbi mükafatı olan qızıl "Haribaldi ulduzu" və "Şöhrət" ordenlərinin kavaleri Məmməd Bağırov, partizanlar arasında "Armed Mişel" adı ilə məşhurlaşmış "Xarqo" təxəllüslü, Fransanın "Fəxri legion" ordeni, müxtəlif orden və medallarına layiq görülən Əhmədiyyə Cəbrayılov və yüzlərlə digər igid həmyerlilərimiz Avropa Antifaşist Müqavimət Hərəkatının ən tanınmış nümayəndələri hesab edilirlər. Qürurvericidir ki, qəhrəman azərbaycanlılarının adları bu gün də həmin ölkələrdə hörmətlə xatırlanır və yad edilir.

Təəssüflə qeyd olunub ki, müharibə dövründə, eləcə də ondan sonrakı illərdə Avropa Antifaşist Müqavimət Hərəkatının əhatə etdiyi ölkələrin ali hökumət orqanları və hərbi komandanlıqları tərəfindən hərəkatda fəal iştirak etmiş azərbaycanlı partizanların şücaət və igidliklərini təsdiqləyən şəhadətnamələr (sertifikatlar) onlara təqdim olunması üçün Sovet İttifaqına göndərilsə də, bu əhəmiyyətli sənədlər uzun illər arxiv fondlarında gizlədilib. Müharibə illərində alman faşistlərinə əsir düşmüş, lakin qaçmağa nail olan və partizan hərəkatına qoşularaq fədakarlıq nümunələri göstərmiş bir çox həmyerlilərimiz Vətənə qayıtdıqdan sonra uzun illər incidilib, onlara sovet hakimiyyəti tərəfindən inamsızlıq və etimadsızlıq nümayiş etdirilib.

Bildirilib ki, bu tədbirin məqsədi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla həyata keçirilən siyasətin mühüm tərkib hissəsi kimi, irs-varislik prinsipinə, milli yaddaşın bərpasına, o cümlədən Vətən uğrunda döyüşmüş həmvətənlərimizə və onların ailə üzvlərinə diqqət və qayğının növbəti nümunəsi olaraq, faşizmə qarşı Avropa Müqavimət Hərəkatında igidlik və rəşadət göstərmiş cəsur azərbaycanlı partizanlara vaxtilə İtaliya və Fransa hökumətləri tərəfindən verilmiş sertifikatlar onların övladlarına təqdim olunmasıdır. Uzun illərdən sonra bu çox mühüm tarixi və ictimai əhəmiyyət kəsb edən sənədlərin öz sahiblərinə çatdırılması həm də dövlətimiz tərəfindən tarixi ədalətin bərqərar edilməsinin daha bir bariz təcəssümüdür.

C.İbrahimov bildirib ki, hazırda Azərbaycan Respublikası müstəqil və suveren bir ölkə olmaqla həm yürütdüyü uğurlu siyasətə, həm də sürətli iqtisadi inkişaf tempinə görə dünya siyasi arenasında böyük hörmətə və nüfuza malikdir. Qətiyyətlə əminik ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə tezliklə Azərbaycanın ərazi bütövlüyü, eləcə də əzəli və tarixi torpaqları olan Qarabağda dövlətimizin beynəlxalq hüquqla təsbit edilmiş suverenliyi də təmin olunacaq, haqq-ədalət zəfər çalacaq.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı belə tədbirlərin vacibliyini vurğulayaraq qeyd edib ki, indiyədək elmi ictimaiyyətə bəlli olmayan bu tarixi sənədlərin təqdim olunması böyük ictimai hadisədir və çox təqdirəlayiqdir. Vətən tarixşünaslığında azərbaycanlıların partizanların müqavimət hərəkatında iştirakına dair kifayət qədər nəşrlər var. Muzeylərdə xalqımızın tarixi yaddaşına dair nadir sənədlər, materiallar saxlanılır. Həmin eksponatların böyük hissəsi azərbaycanlıların Avropa xalqlarının azadlığı uğrunda faşizmə qarşı müqavimət hərəkatında iştirakına şahidlik edib. Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında bu hərəkatın onlarla qəhrəman azərbaycanlı oğullarına məxsus sənədlər, fotoşəkillər və şəxsi əşyalar qorunur. Azərbaycana qarşı informasiya müharibəsi aparan qüvvələr tariximizin bu şanlı səhifəsini silməyə, qəhrəmanlarımızın adlarını ləkələməyə çalışırlar. Odur ki, tariximizin belə şərəfli səhifələrinin qəhrəmanlarının yaddaşlarda həkk olunması üçün əlimizdən gələni etməliyik.

Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez Avropa Müqavimət Hərəkatının iştirakçılarının, o cümlədən leytenant Bayandur Hacıyevin xatirəsinin yad olunduğu belə mühüm tədbirdə iştirakdan qürur hissi keçirdiyini bildirib. Qeyd edib ki, azərbaycanlı partizanın keçdiyi döyüş yolunun timsalında İkinci Dünya müharibəsi zamanı Fransada döyüşmüş, beləliklə Qələbəyə böyük töhfələr vermiş bütün qəhrəmanların xatirəsini yad etmək bizim əsas vəzifəmizdir. Bütün sosial təbəqələrdən, müxtəlif ölkələrdən olan vətəndaşlar Fransa Müqavimət Hərəkatında iştirak ediblər. Bu tədbir qəhrəmanlarımızın təbliği, ümumi yaddaşımız üçün çox vacibdir. Müqavimət hərəkatının iştirakçıları ölkələrimiz və xalqlarımız arasında ümumbəşəri dəyərlərin və sülhün qorunmasının rəmzləridirlər. Birgə dəyərlərə sadiq qalaraq iki ölkənin xalqlarının inkişafının möhkəm özəyini təşkil edən və keçmişdə çiyin-çiyinə mübarizə aparmış döyüşçülərə hörmətlə yanaşmaq hamımız, o cümlədən Fransa üçün böyük şərəfdir.

İtaliyanın Azərbaycandakı konsulu xanım Anna Mariya Bianҫi diqqətə çatdırıb ki, bir vaxt keçmiş SSRİ-nin tərkibində olan, indi isə müstəqil dövlət olan Azərbaycandan yüzlərlə döyüşçü İtaliya müqavimət hərəkatında iştirak edib. Azərbaycanlıların Fransa və İtaliya müqavimət hərəkatlarında iştirakı geniş təbliğ olunmalıdır. Azərbaycan zəngin neft ehtiyatları və strateji mövqeyinə görə faşistlərin işğalçılıq siyasətinin mərkəzində yer alırdı. Hitler SSRİ-yə hücum etdiyi vaxtdan etibarən azərbaycanlılar və digər xalqlar faşistlərə qarşı vuruşmağa başlayıblar. Azərbaycanın və bu xalqın övladlarının müharibənin qazanılmasına töhfəsi böyükdür. Onların qəhrəmanlıqları barədə çoxsaylı hekayələr, nəşrlər mövcuddur.

Tədbirdə iştirakına görə məmnunluğunu bildirən Anna Mariya Bianҫi belə görüşlərin Azərbaycan ilə İtaliya arasındakı dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycanlı partizan Bayandur Hacıyevin oğlu Nicat Hacıyev ailə üzvləri adından Prezident İlham Əliyevə, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevə və bu işdə əməyi olan Xidmətin əməkdaşlarına minnətdarlığını bildirib. Qeyd edib ki, partizanların vərəsələri üçün arzuolunan araşdırma nəhayət, dövlətçiliyimizin keşiyində ayıq-sayıq dayanan DTX tərəfindən həyata keçirilib. O, Fransa və İtaliya xalqlarına da minnətdarlığını bildirərək atasının və digər azərbaycanlıların fədakarlığını, qəhrəmanlığını yüksək qiymətləndirilməsindən məmnunluğunu diqqətə çatdırıb.

O, təəssüf hissi ilə qeyd edib ki, məkrli qonşularımız öz çirkin niyyətlərindən əl çəkməyərək azərbaycanlıların qəhrəmanlıqlarını, fədakarlıqlarını min bir hiylə ilə ört-basdır etməyə çalışıblar. Lakin Azərbaycan övladları tarixboyu şöhrətə görə yox, məhz torpağa və xalqa görə vuruşduqlarını sübut ediblər. Mənə bu yaşımda atamı ikinci dəfə qəhrəman kimi görməyə kömək etdiyiniz üçün hər kəsə minnətdarlığımı bildirirəm.

Sonra Avropa Müqavimət Hərəkatında göstərdikləri xüsusi şücaətə görə "Vətənpərvərin sertifikatı" ilə təltif edilmiş azərbaycanlı partizanların övladlarına DTX-nin arxiv fondlarında saxlanılan sertifikatlar təqdim olunub. Sertifikatları general-polkovnik Mədət Quliyev, akademik Nailə Vəlixanlı, səfir Orelia Buşez və konsul Anna Mariya Bianҫi azərbaycanlı partizanlar - Allahqulu Quliyevin, İbrahim İbrahimovun, Əbdürəhman Novruzovun, Feyzulla İsmayılovun, Bayandur Hacıyevin və Famil Məmmədovun övladlarına təqdim ediblər.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb



Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Yaponiya hökumətinin dəstəyi ilə Ordubad rayonundakı Azadkənddə su təchizatı sisteminin inşası layihəsinin həyata keçirilməsini qarşılıqlı əlaqələrin nəticəsi kimi dəyərləndirib və səfirə təşəkkürünü bildirib. Ali Məclisin Sədri deyib ki, hər il muxtar respublikada meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, rayon mərkəzlərində və ətraf kəndlərdə yeni içməli su və kanalizasiya sistemləri qurulur. Bu il Ordubad rayonunda da içməli su və kanalizasiya sistemləri layihəsi başa çatdırılacaqdır.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Yaponiya arasında təhsil və iqtisadi sahədəki əlaqələrə diqqəti çəkən Ali Məclisin Sədri muxtar respublika nümayəndələrinin Yaponiyada keçirilən müxtəlif təlim və seminarlarda iştirakından bəhs edib. Ali Məclisin Sədri 2016-cı ildə Yaponiyanın Okinava Prefekturasının nümayəndə heyətinin Naxçıvana səfərini və bu zaman həyata keçirilən qarşılıqlı tədbirləri xatırladıb, layihənin həyata keçirilməsində və fəaliyyətində səfirə uğurlar arzulayıb.

Səfir Teruyuki Katori Naxçıvana səfərindən məmnunluğunu bildirib. Yaponiya-Azərbaycan əlaqələrinin iqtisadi, təhsil və mədəniyyət sahələrində inkişaf etdiyini bildirən səfir muxtar respublikada su təchizatı sistemi layihəsinin həyata keçirilməsi barədə danışıb, əlaqələrin genişlənməsində səylərin artırılacağını vurğulayıb.

# Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında elektron kitabxana yaradılıb




Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında elektron kitabxana (ebook.yap.az) yaradılıb.

Elektron kitabxanada müxtəlif sahələr üzrə çoxsaylı nəşrlər yerləşdirilib. Belə ki, e-kitabxanada müxtəlif kateqoriyalar üzrə kitablar elektron qaydada təqdim olunur. Bu kateqoriyalara Yeni Azərbaycan Partiyasının nəşrləri, eləcə də "Fəlsəfə və sosiologiya", "Tarix", "İqtisadiyyat", "Siyasət və hüquq", "Elm və təhsil", "Mədəniyyət və turizm", "Dilçilik", "Ədəbiyyatşünaslıq", "Bədii ədəbiyyat", "İnformatika və rabitə", "Din", "Təbiət elmləri", "Kənd və meşə təsərrüfatı", "Tibb və səhiyyə", "Hərbi iş", "İdman", "Ekologiya və neft" və "Müxtəlif kitablar" daxildir.

E-kitabxanada Yeni Azərbaycan Partiyasının nəşrlərindən "Heydər Əliyev", "İlham Əliyev", "Yeni Azərbaycan Partiyası", "Azərbaycan müasir dünyada", "Heydər Əliyev ideyaları və dərin islahatlar strategiyası" və digər kitablar elektron qaydada təqdim olunur.

"Siyasət və hüquq" kateqoriyasında isə "İlham Əliyev: İnkişaf məqsədimizdir" çoxcildliyi və digər ədəbiyyatlardan geniş oxucu kütləsi istifadə edə bilər.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında yaradılmış elektron kitabxanada sadalananlarla yanaşı, müxtəlif sahələr üzrə zəngin ədəbiyyat elektron qaydada təqdim edilir. Yeni Azərbaycan Partiyasının üzvləri, eləcə də bütün ictimaiyyət ebook.yap.az saytına daxil olmaqla elektron kitabxanın imkanlarından faydalana bilərlər.

# Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının iclası keçirilib



Bakı Gənclər Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının 2019-cu ildə ilk iclası keçirilib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, iclasda Müşahidə Şurasının gündəliyi müzakirə edilib və 2018-ci ildə görülən işlər barədə hesabat təqdim olunub.

Sonra Gənclər Fondunun 2019-cu il üçün fəaliyyət planı müzakirə olunaraq təsdiqlənib. Həmçinin Gənclər Fondunun maddi-texniki bazası əsasında yeni fəaliyyətə başlayan Gənclərin Karyera və İnkişaf Mərkəzinin iş planı və strukturu müzakirə olunub.

İclasda Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Müşahidə Şurasının üzvləri - gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, mədəniyyət nazirinin müavini Rafiq Bayramov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi Qafqaz Müsəlmanları İdarəsində yad edilib




Fevralın 21-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbir təşkil edilib.

AZƏRTAC xəbər verir ki, müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlanan tədbirdə QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı və onun başvermə səbəbləri, şəhərin işğalı zamanı dinc əhaliyə qarşı törədilmiş genişmiqyaslı qanlı hərbi cinayət barədə ətraflı məlumat verib. Bildirilib ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələri Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini yerlə-yeksan edib, dinc sakinləri məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktını törədiblər. Erməni vandalları işğal etdikləri ərazilərimizdə bütün maddi-mənəvi abidələrimizi yerlə-yeksan ediblər. Erməni işğalçıları bu gün də atəşkəsi mütəmadi olaraq pozur, dinc əhalini atəşə tuturlar.



QMİ sədri qeyd edib ki, bütün dünyanın gözü qarşısında baş verməsinə baxmayaraq, bu tarixi faciəyə dünya birliyi hələ də lazımi siyasi qiymət verməyib.

A.Paşazadə qeyd edib ki, dövlətimiz tərəfindən qaçqın və məcburi köçkün ailələrinə, o cümlədən Xocalı faciəsi qurbanlarının ailələrinə hər zaman diqqət və qayğı göstərilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, xalqımız Xocalı faciəsini heç zaman unutmamalıdır. Çünki Xocalıda törədilmiş faciə insanlıq əleyhinə cinayətdir. Bu faciəni törədənlər yaşından, harada olmasından asılı olmayaraq cinayət məsuliyyətinə cəlb edilməlidir.

Komitə sədri qeyd edib ki, Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında çoxsaylı işlər görülüb və hazırda da bu işlər davam etdirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bildirib ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etmək siyasətini yeridir. Lakin bu yol tükənəndə Azərbaycan dövlətinin məsələni hərbi yolla həll etmək ixtiyarı var. Buna ölkəmizin istər siyasi, istərsə də hərbi gücü çatır.

Xocalı faciəsinin dünya ictimaiyyətinə tanıdılması istiqamətində görülən işlərlə bağlı danışan R.Rzayev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasını xatırladıb. Qeyd edib ki, bu kampaniya çərçivəsində görülən işlərin nəticəsində artıq bir çox ölkələr Xocalı soyqırımını tanıyır.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, deputatlar Flora Qasımova, Bəxtiyar Əliyev, Elman Məmmədov, Azərbaycandakı Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev və digər çıxış edənlər bildiriblər ki, insanlıq əleyhinə cinayət olan Xocalı soyqırımını törədənlər ədalət qarşısında cavab verməlidirlər. Bildirib ki, Ümummilli lider Heydər Əliyev ilk dəfə Xocalı soyqırımının əsl mahiyyətini açıqlayıb, hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib. Dövlətimizin başçısı İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının, Azərbaycanın işğal edilmiş torpaqlarından erməni silahlı qüvvələrinin çıxarılmasının zəruriliyini daim qətiyyətlə vurğulayır, soyqırımı cinayətini törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının vacibliyini bəyan edir.

Tədbirdə Xocalı faciəsi ilə bağlı dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət qəbul edilib.

# Azərbaycanın din xadimləri Xocalı soyqırımının ildönümü ilə əlaqədar dünya dini liderlərinə, beynəlxalq təşkilatlara müraciət ediblər




Fevralın 21-də Azərbaycanın dini liderləri Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar dünya dini liderlərinə və parlamentlərinə, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ediblər.

AZƏRTAC xəbər verir ki, müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev imzalayıblar.

Müraciətdə deyilir: O Bir Olan Yaradanın adı ilə! Biz, milyonlarla azərbaycanlının iradəsini ifadə edərək, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalıda törədilmiş soyqırımının 27-ci ildönümü ərəfəsində dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün dünya ictimaiyyətinə bir daha müraciət edirik.

Azərbaycan xalqının qan yaddaşında həkk olunmuş tarixi fakt ondan ibarətdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları öz havadarlarının köməyi ilə Xocalı şəhərinə qəfil silahlı basqın edib və oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törədib. Azərbaycanın Xocalı şəhərində həmin gecə erməni silahlı quldurları tərəfindən qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 nəfər mülki əhali xüsusi qəddarlıqla qətlə yetirilib. Xocalı şəhəri yerlə-yeksan edilib, əhalinin 150 nəfəri itkin düşüb, 1275 nəfər əsir götürülərək ağır işgəncələrə məruz qalıb, vəhşicəsinə qətlə yetirilmiş dinc sakinlərin meyitlərinin üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilib.

Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn ən ağır cinayətlərdəndir. Mahiyyəti etibarilə, Xocalı faciəsi Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə eyni qəbildəndir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan xalqı öz doğma torpaqlarında etnik təmizləməyə, fiziki və mənəvi terrora məruz qalıb, erməni ekstremistləri ərazimizin 20 faizini işğal edib, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salıb, zəbt etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Xocalıda məqsədyönlü soyqırımı aktı isə erməni vəhşiliklərinin kulminasiya nöqtəsidir.

İyirmi yeddi il müddət keçməsinə baxmayaraq, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin tələbləri bu günədək yerinə yetirilməyib. Azərbaycanın beynəlxalq ictimaiyyətə mütəmadi müraciətlərinə obyektiv yanaşan dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanısa da, təəssüf ki, bu dəhşətli cinayətə etinasız yanaşanlar da mövcuddur.

Bu gün dünyada baş verən zorakılıq halları, terrorizm və ekstremizm kimi cinayətlərin təməlində bəzi dövlətlərin, təşkilatların və dini liderlərin problemlərə münasibətindəki ikili standartlar, rasizm, antisemitizm, ksenofobiya, islamofobiya kimi təhlükəli meyillər dayanır. Bu yanaşma səbəbindən törədilən qətliamlar, o cümlədən Xocalı faciəsi layiqli qiymətini almadıqca, yeni-yeni bəşəri cinayətlərə yol açılır, dünyanın müxtəlif bölgələrində soyqırımlarının təkrarlanmasına, terror, ekstremizm, separatçılıq üçün zəmin yaranır. Çox böyük təəssüf doğuran məqamdır ki, bəzi dövlətlər real tarixi soyqırımlarının deyil, saxta soyqırımı iddialarının tanınması yönündə səylərini əsirgəmirlər. Beynəlxalq müstəvidə tarixi faktlara əsaslanmayan hadisələrin qərəzli şəkildə siyasiləşdirilərək haqsız iddialara yol açması yönündə meyillər bizi narahat edir. Belə təəssübkeşlik heç bir vəchlə qəbul oluna bilməz!

Azərbaycanın üzləşdiyi bu təcavüz və onun nəticəsində bir milyonluq qaçqın və məcburi köçkün probleminə biganə münasibət bəslənməsinin, soydaşlarımızın erməni ekstremistləri tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmasının hesabının sorulmaması nəticəsində erməni tərəfi təxribatlarından nəinki əl çəkmir, öz dədə-baba yurdlarında uyuyan qohumlarının qəbirini ziyarət edən vətəndaşlarımızı əsir, girov götürərək onlara qarşı işgəncələr tətbiq edir, meyitlərin qaytarılması məsələsində belə beynəlxalq konvensiyalara əməl etməkdən boyun qaçırır. Xocalı qətliamında əli olanların tarixin mühakiməsindən boyun qaçıra bilməyəcəkləri məlumdur və bunun əlamətləri artıq göz qabağındadır. Xocalı canilərinin soyqırımı cinayətinə görə beynəlxalq tribunala çıxarılacağı gün uzaqda deyil, inşallah!

Biz, Azərbaycanda yaşayan müxtəlif konfessiyalardan olan din xadimləri Azərbaycanın dövlət rəhbərinin ölkəmizin ərazi bütövlüyünün bərpası yönündə səylərinin uğurla nəticələnməsinə inanır, bunun üçün dualar edirik. Biz Vətənimizin ayrılmaz hissəsi olan Qarabağda torpaqlarımızın azad olması uğrunda həlak olmuş bütün şəhidlərin, o cümlədən Xocalı şəhidlərinin əziz xatirəsini daim uca tutur, onların ruhlarına Allahdan rəhmət diləyirik. Biz, din xadimləri bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyir, Dağlıq Qarabağda beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə ədalətin bərqərarı, qaçqın və məcburi köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtması üçün dualar edir, səylərimizi əsirgəmirik. Bu məramla dünyanın dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə bir daha müraciət edərək, onları Azərbaycan xalqına qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial siyasi, hüquqi qiymət verməyə, Xocalıda törədilən cinayəti soyqırımı aktı kimi tanımağa çağırırıq.

Qoy Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun! Amin!".

# Elmar Məmmədyarov: Azərbaycan Respublikası UNESCO-nun dəyərlərinə və prinsiplərinə sadiqdir

***Fevralın 21-də UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 25 ili tamam olur. Komissiyanın sədri, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov bununla əlaqədar AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

**- Cənab nazir, məlum olduğu kimi, siz UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədrisiniz. Bu il Milli Komissiyanın yaradılmasının 25 ili tamam olur. Milli Komissiyanın yaranmasının tarixçəsi, əsas fəaliyyət istiqamətləri, UNESCO ilə uğurlu əməkdaşlıq və gələcək planlar barədə məlumat verməyinizi xahiş edirik.**

- UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 1994-cü il fevralın 21-də Ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamı ilə yaradılıb. Həmin Sərəncamla Milli Komissiya Xarici İşlər Nazirliyi yanında fəaliyyətə başlayıb. 2005-ci il sentyabrın 15-dən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, Milli Komissiya Azərbaycan Respublikasının Prezidenti yanında statusu ilə fəaliyyətini davam etdirir.

Dövlətimizin başçısının 2018-ci il 29 avqust tarixli Sərəncamı ilə Milli Komissiyanın yeni tərkibi təsdiq olundu. Hazırda Komissiyanın 17 üzvü var. Milli Komissiyanın iclaslarında Komissiyanın cari fəaliyyəti və gələcək planları ətrafında fikir mübadiləsi aparılır. Milli Komissiyanın gündəlik fəaliyyəti Komissiyanın Daimi Katibliyi tərəfindən həyata keçirilir.

Milli Komissiya aidiyyəti nazirliklərin, dövlət və ictimai təşkilatların UNESCO ilə elm, təhsil, mədəniyyət, informasiya və kommunikasiya sahələrində əməkdaşlığın həyata keçirilməsində əlaqələndirici rol oynayır, UNESCO-nun proqram və tədbirlərinin hazırlanmasında və reallaşdırılmasında Azərbaycan Respublikasının fəal iştirakını təmin edir, bu təşkilata üzv ölkələrin Milli komissiyaları ilə əlaqələri inkişaf etdirir və ölkəmizin mənafeyinə xidmət edən müştərək proqramlarda və tədqiqat işlərində iştirak edir. Milli Komissiya yerli qurumların müvafiq layihələrinin həyata keçirilməsinə dəstək verir, bundan əlavə, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə birgə tədbirlər həyata keçirir.

Bu il Milli Komissiyanın yaradılmasının 25 ilinin tamam olmasını nəzərə alaraq, ölkə daxilində və xaricində, o cümlədən UNESCO-nun baş qərargahında bir sıra tədbirlərin keçirilməsini planlaşdırırıq.

Vurğulamaq istərdim ki, Azərbaycan Respublikası UNESCO dəyərləri və prinsiplərinə sadiqdir və bu, UNESCO ilə səmərəli əməkdaşlıq münasibətlərimizlə təsdiqlənir.

Azərbaycan-UNESCO əlaqələrinin təməlinin qoyulmasında Ümummilli liderimiz Heydər Əliyevin böyük rolu olub. Hələ sovet dövründə Ulu öndər UNESCO-nun Azərbaycan ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak edib.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra - 1992-ci il iyunun 3-də UNESCO-ya üzv oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ilin dekabrında UNESCO-nun baş direktoru Federiko Mayorla keçirdiyi görüş UNESCO ilə uğurlu əməkdaşlıq münasibətlərinin inkişafına təkan verib.

Hazırda Azərbaycan ilə UNESCO arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkəmizlə UNESCO arasında əlaqələrin inkişafında və genişlənməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın müstəsna xidmətləri olub. Xanım Mehriban Əliyevanın himayəsi ilə UNESCO çərçivəsində mədəni irsin qorunması, mədəniyyətlərarası dialoqun təşviqi, gender bərabərliyi, təhsilin inkişafı və digər sahələrdə əhəmiyyətli layihələr həyata keçirilib. Məhz xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycanın 2 maddi və 13 qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb.

**- Ölkəmiz UNESCO ilə əməkdaşlıq münasibətləri çərçivəsində bir sıra layihələri maliyyələşdirir. Bununla əlaqədar nə deyə bilərsiniz?**

- Bu əlaqələrə misal olaraq, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2013-cü ildə imzalanmış, UNESCO-Azərbaycan əməkdaşlığının genişlənməsində xüsusi rol oynayan "Azərbaycan hökuməti ilə UNESCO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi"ni göstərmək olar. Sazişə uyğun olaraq, Azərbaycan hökuməti tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına UNESCO-nun xətti ilə bir sıra Afrika ölkələrində (Uqanda, Keniya, Tanzaniya və Liberiyada) qızların təhsili, maarifləndirilməsi, gender bərabərliyi, Banqladeş və Qvatemalada davamlı inkişaf üzrə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı layihələr həyata keçirilib. Bu, heç şübhəsiz ki, beynəlxalq səviyyədə ölkəmizin nüfuzunun artmasına xidmət edir və Azərbaycanın yeni keyfiyyətdə - donor dövləti qismində UNESCO çərçivəsində müsbət imicinin daha da möhkəmlənməsinə imkan yaradır.

**- Təşkilatla əməkdaşlıq çərçivəsində son uğurlar barədə qısa məlumat verə bilərsinizmi?**

- 2018-ci il UNESCO çərçivəsində ölkəmizin bir sıra nəzərəçarpan uğurları ilə yadda qaldı. Ötən il iyunun 24-dən iyulun 4-dək Bəhreyn Krallığının paytaxtı Manama şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 42-ci sessiyası çərçivəsində Komitənin növbəti sessiyasının 2019-cu ildə Bakıda keçirilməsinə dair qərar qəbul edildi və ölkəmiz Komitənin sədri seçildi. Qeyd etmək istərdim ki, Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biri hesab olunur. Ümumdünya İrs Komitəsi tərəfindən dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və təbii irs nümunələrinə, ən dəyərli abidələrə dair qərarlar qəbul edilir.

Ölkəmizin əldə etdiyi digər bir uğur 2018-ci ilin iyununda UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilməyimiz oldu. Kəskin rəqabət şəraitində ölkəmizin apardığı geniş təbliğat-təşviqat kampaniyası nəticəsində Azərbaycan 90 səslə 7 namizəd arasında ən çox səs yığaraq Komitədə iki vakant yerdən birinə üzv seçildi. Bu, heç şübhəsiz ki, ölkəmizin böyük nailiyyətidir və Azərbaycanın beynəlxalq arenada, o cümlədən UNESCO-dakı nüfuzunun göstəricisidir.

Bu Komitə dünya xalqlarının qeyri-maddi mədəni irsinin mühafizəsi, irs nümunələrinin UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahılarına daxil edilməsi ilə bağlı qərarların qəbul olunduğu qurumdur.

Bundan əlavə, bildirmək istərdim ki, 2018-ci il noyabrın 26-dan dekabrın 1-dək Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında Azərbaycan tərəfinin təqdim etdiyi "Çövkən - ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı milli hesabat qəbul olundu. Eyni zamanda, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyası Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına və Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli nominasiyası UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi.

**- Ötən il "Bakı Prosesi"nin 10 ili tamam oldu. Bu proses çərçivəsində Azərbaycan ilə UNESCO arasında həyata keçirilən əməkdaşlıqla əlaqədar fikirlərinizi bilmək istərdik.**

- 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi"nin 10 ili tamam oldu. Bu əlamətdar hadisə il ərzində milli və beynəlxalq səviyyədə qeyd edildi.

"Bakı Prosesi" çərçivəsində keçirilən Mədəniyyətlərarası Dialoq Forumunun əsas tərəfdaşlarından biri də məhz UNESCO-dur. Forum qısa müddət ərzində mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platformaya çevrilib. Bu forum çərçivəsində UNESCO-nun müxtəlif tədbirləri təşkil olunur. Vurğulanmalıdır ki, UNESCO-nun baş direktoru BMT-yə təqdim etdiyi illik hesabatda "Bakı Prosesi"nin əhəmiyyətini və mədəniyyətlərarası dialoqun inkişafında Azərbaycanın rolunu xüsusi qeyd edir. Ötən il oktyabrın 25-26-da təşkil olunan VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Bakı Prosesi"nin 10 illiyinə həsr edilən plenar sessiya uğurla keçirildi. Qeyd olunanlar Azərbaycanın UNESCO üçün mədəniyyətlərarası dialoqun təşviqində çox dəyərli tərəfdaş olduğunu sübut edir.

**- Məlumdur ki, Ermənistanın yeritdiyi işğal siyasəti nəticəsində zəbt olunmuş ərazilərimizdə mədəni sərvətlərimiz dağıdılıb. Ermənistan tərəfi Azərbaycanın mədəni irs nümunələrinin mənimsənilməsi istiqamətində cəhdlərini davam etdirir. Bu məsələ ilə bağlı UNESCO çərçivəsində həyata keçirilən fəaliyyət barədə nə deyə bilərsiniz?**

- Qeyd etdiyiniz məsələlər Milli Komissiyanın fəaliyyətində əsas prioritet kimi daim diqqət mərkəzindədir. Azərbaycanın işğal olunmuş ərazilərində mədəni sərvətlərin dağıdılması məsələsi UNESCO rəsmiləri ilə müxtəlif səviyyələrdə keçirilən ikitərəfli görüşlərdə mütəmadi olaraq qaldırılır. Ermənistan tərəfindən Azərbaycan mədəni irs nümunələrinin mənimsənilməsi cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Milli sərvətlərimizin dağıdılması məsələsi, həmçinin UNESCO-nun aidiyyəti Komitə iclaslarında və digər beynəlxalq tədbirlərdə gündəmə gətirilir. Çıxışlar zamanı ölkəmizin təbii, tarixi və mədəni sərvətlərinin vəhşicəsinə dağıdılması vurğulanır və bunun qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsinə çağırış edilir.

Bir az əvvəl qeyd etdiyim kimi, ötən il noyabrın 26-dan dekabrın 1-dək Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası keçirildi. Sessiya zamanı 2013-cü ildə UNESCO-nun siyahısına daxil edilmiş "Çövkən - ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı Azərbaycan tərəfinin təqdim etdiyi milli hesabat qəbul olunub. Hesabatda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və 7 ətraf rayonunun işğalı faktı və işğalın Azərbaycanın irsi üçün yaratdığı fəsadlar əks olunub.

Bundan əlavə, sessiya çərçivəsində "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyasının müzakirələri zamanı Ermənistan tərəfi Komitədəki üzvlüyündən sui-istifadə edərək ölkəmizə qarşı çirkin kampaniya aparır, xalqımızın mədəni irsinin mənimsənilməsi iddiaları ilə çıxış edir, Komitənin işini siyasiləşdirir və aqressiv davranışı ilə Konvensiyanın məqsəd və prinsiplərinə ciddi xələl gətirirdi. Buna baxmayaraq, Azərbaycan tərəfindən aparılmış iş nəticəsində erməni tərəfinin təhrikçi cəhdləri iflasa uğradı, adıçəkilən nominasiyamız UNESCO-nun siyahısına daxil edildi.

Vurğulamaq istərdim ki, Azərbaycan artıq dörd çoxmillətli nominasiyanın ("Novruz bayramı", "Lavaş", "Kamança", "Dədə Qorqud") UNESCO siyahısına daxil edilməsinə nail olub. Regional əməkdaşlıqdan bəhs edən Ermənistanın heç bir çoxmillətli nominasiyası yoxdur. Bu, bir tərəfdən, Ermənistanın mədəni sahədə də regionda təcrid olunduğunun, digər tərəfdən isə, ölkəmizin UNESCO çərçivəsində regional əməkdaşlıqda əldə etdiyi uğurların göstəricisidir.

Ölkəmizin UNESCO çərçivəsində həyata keçirdiyi bu fəaliyyət, heç şübhəsiz ki, xalqımızın zəngin və çoxəsrlik milli irsinin mühafizəsinə və beynəlxalq səviyyədə təbliğinə xidmət edir. Erməni yalanlarının ifşa olunması, ermənilərin iddialarına son qoyulması istiqamətində səylər davam etdiriləcək.

# KİV rəhbərləri Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti ilə yaxından tanış olublar



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri fevralın 21-də Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəhbərliyi ilə görüşüb, Xidmətin fəaliyyəti ilə yaxından tanış olublar.

AZƏRTAC xəbər verir ki, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov qonaqlara Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə qurumun fəaliyyətinin müasirləşdirilməsi və müasir dövrün çağırışlarına uyğunlaşdırılması istiqamətində gerçəkləşdirilən kompleks tədbirlər barədə məlumat verib. O bildirib ki, Xidmət üzərinə düşən vəzifələri qanunçuluq, humanizm, şəffaflıq prinsipləri əsasında həyata keçirərək insan və vətəndaş məmnunluğunun təmin olunmasını əsas hədəflər kimi müəyyənləşdirib. Xidmətin fəaliyyətinin prioritet istiqamətlərinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə olduğu yer üzrə qeydiyyatı, miqrasiya qaydalarına əməl etmələrinə nəzarətin həyata keçirilməsi, vətəndaşlığa qəbul, bərpa və xitam verilməsi, müvəqqəti və daimi yaşama icazələrinin, iş icazələrinin verilməsi, vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyən edilməsi, qanunsuz miqrasiyaya qarşı səmərəli mübarizənin, habelə miqrasiya uçotunun təşkili, readmissiya məsələlərinin həlli və miqrasiya qanunvericiliyinin şərhi məqsədilə maarifləndirmə işinin aparılması və digər məsələlər aiddir. Miqrasiya proseslərinin daha çevik və mütərəqqi iş metodları əsasında tənzimlənməsi məqsədilə bu sahə üzrə qanunvericiliyin təkmilləşdirilməsi diqqət mərkəzindədir. Məqsəd ölkəmizə gələn əcnəbilərin qeydiyyatı və yaşaması ilə bağlı məmnunluğunun təmin edilməsi, turizm baxımından cəlbediciliyin artması və sahibkarlığın inkişafının dəstəklənməsidir.

Vüsal Hüseynov miqrasiya sahəsində aparılan islahatların uğurlu nəticələri barədə ətraflı məlumat verib. O, 2018-ci ilin dekabrında Xidmətin "MİGAZ" mobil tətbiqinin istifadəyə verilməsini də mühüm yeniliklərdən biri kimi dəyərləndirib. Bildirib ki, Azərbaycan, ingilis və rus dillərində hazırlanmış mobil tətbiq üzərindən birbaşa əlaqə vasitəsilə zəng və sorğuların cavablandırılmasını da həyata keçirmək mümkündür. Yaxın gələcəkdə dil seçimi menyusu zənginləşdiriləcək. Yüksək interaktivliyi ilə seçilən mobil tətbiq vasitəsilə istifadəçilərə istər qeydiyyat, istərsə də digər elektron xidmətlərlə bağlı mütəmadi yeniliklər, bildirişlər göndəriləcək. Tətbiqin istifadəsi əcnəbi vətəndaşların olduğu yer üzrə qeydiyyatına, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınmasına, məhdudiyyətin və müraciət statusunun yoxlanılmasına, onlayn ödəmə və növbəyə durmaya, "ASAN Viza" və xidmətin digər istiqamətləri üzrə servis xidmətlərinə mobil tətbiq üzərindən çıxış əldə etməyə imkan verir.



Xidmət rəisi vurğulayıb ki, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, onların hüquqlarının müdafiəsi xüsusi diqqət mərkəzindədir.

Qısa müddətdə həyata keçirilən islahatların uğurlu nəticələr verdiyini deyən V.Hüseynov əlavə edib ki, 2017-2018-ci illərdə "ASAN xidmət indeksi" üzrə mərkəzi icra hakimiyyəti orqanları sırasında ən yüksək nəticəni 68,98 faizlə Dövlət Miqrasiya Xidməti göstərib. O, Xidmətin fəaliyyətində səmərəliliyin daha da yüksəldilməsi üçün maarifləndirmə və məlumatlandırma işinin təşkilinə də xüsusi əhəmiyyət verildiyini diqqətə çatdırıb. Bildirib ki, bu məqsədlə sosial şəbəkələrin imkanlarından istifadəyə xüsusi önəm verilir.

Sonra çıxış edən Fondun icraçı direktoru Vüqar Səfərli görüşün təşkilində göstərdiyi dəstəyə görə Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirib və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından belə tədbirlərin əhəmiyyətindən söz açıb.

V.Səfərli ölkə rəhbərliyinin mediaya yüksək diqqət və qayğısının nəticəsi kimi Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edildiyini bildirib. İcraçı direktor Konsepsiyadan irəli gələn vəzifələrin reallaşdırılması üçün dövlətimizin başçısının 2009-cu il 3 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını deyib. O, Fondun yaradılmasının xüsusən də çap mediasının üzləşdiyi problemlərin həlli baxımından əhəmiyyətini diqqətə çatdırıb.

İcraçı direktor Fondun fəaliyyət göstərdiyi 10 il müddətində qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı çoxsaylı layihələr barədə məlumat verib.



Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə dövlət büdcəsi hesabına jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açan V.Səfərli bunu dünyada analoqu olmayan sosial layihə kimi dəyərləndirib.

İcraçı direktor mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin təşkilinin Fondun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. O bildirib ki, Dövlət Miqrasiya Xidmətində təşkil olunmuş görüş KİV-lə bu Xidmət arasında əməkdaşlığın dərinləşdirilməsi, habelə ictimaiyyətin bu sahədə görülmüş işlər barədə dolğun məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, "Mövqe" qəzetinin baş redaktoru Rasim Bayramov və başqaları Dövlət Miqrasiya Xidmətinin fəaliyyətində son aylarda qabarıq hiss olunan yenilikləri təqdir edərək Xidmətin yeni rəhbərinin müasir çağırışlara cavab verən islahatlarını vurğulayıblar. Çıxış edənlər Xidmətin tətbiq etdiyi yeniliklərin ölkəmizin beynəlxalq imicinin yüksəldilməsi, turizm cəlbediciliyinin artırılması və ümumən milli təhlükəsizliyinin qorunması baxımından əhəmiyyətindən söz açıblar.

Xidmət rəisi V.Hüseynov daha sonra KİV rəhbərlərini maraqlandıran sualları cavablandırıb.

Fondun icraçı direktoru V.Səfərli sonda media ilə səmərəli əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəyə görə Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirib.

V.Hüseynov Xidmətin fəaliyyətinin media üçün daim açıq olduğunu vurğulayaraq kütləvi informasiya vasitələri ilə əməkdaşlığın vacibliyini qeyd edib.

Sonda tədbir iştirakçıları Xidmətin Heydər Əliyev Muzeyi ilə tanış olublar. Xidmətin 24 saat fəaliyyət göstərən "Çağrı mərkəzi" və qəbul şöbəsinin işi ilə yaxından tanışlıq da qonaqlarda xoş təəssüratlar yaradıb.

# Vyanada ATƏT Parlament Assambleyasının 18-ci qış sessiyası işə başlayıb

Fevralın 21-də Vyanada ATƏT Parlament Assambleyasının (ATƏT PA) 18-ci qış sessiyası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, ATƏT-ə üzv olan 57 ölkədən 300-dək deputatın iştirak etdiyi sessiyada Azərbaycanı Milli Məclis sədrinin müavini Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir. Nümayəndə heyətinə Milli Məclisin deputatları Azay Quliyev, Tahir Mirkişili, Elşad Həsənov, Kamran Nəbizadə və Ülviyyə Ağayeva daxildir.



Sessiya çərçivəsində keçiriləcək komitə iclaslarında "Uzanan münaqişələrin həlli üçün ATƏT-in imkan və mexanizmləri", "ATƏT regionunda korrupsiya, pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində səmərəli idarəetmə", "Fövqəladə vəziyyətlərdə insan hüquqlarının qanuni məhdudlaşdırılmasının təsir sahələri" və digər mövzularda fikir mübadiləsi aparılacaq.

İki gün davam edəcək sessiya çərçivəsində hər üç komitənin (siyasi məsələlər və təhlükəsizlik, iqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit, eləcə də demokratiya, insan haqları və humanitar məsələlər) iclasları keçiriləcək. Sessiyanın işinə hər üç komitənin birgə iclası ilə yekun vurulacaq.

# "Yeni metodlardan istifadə etmək daha məqbul hesab edilə bilər"

**"Azərbaycan demokratik ölkədir və ən müxtəlif siyasi dünyagörüşün daşıyıcıları olan fərdlər və təşkilatlar öz fikirlərini sərbəst şəkildə ifadə edə bilirlər. Bu, mitinqlər, yazılı bəyanatlar, mətbuat və s. vasitələrlə həyata keçirilir və bütün demokratik ölkələrdə də belədir".** Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.



Deputatın sözlərinə görə, yalnız mitinqlər şəklində kütləvi tədbirlərin keçirilməsində israr edənlər varsa, o zaman gərək onlar mütləq ictimai asayiş, onun qorunması, digər ictimai maraqlarla bağlı mənafelərin təmin olunmasını da nəzərə alsınlar: **"Təəssüf ki, bəzən bizdə belə məsələlərə diqqət yetirilmir, mitinqlər zamanı qanunun tələbləri və ictimai asayiş mitinq iştirakçıları tərəfindən pozulur, bu da digər vətəndaşlarımızda haqlı narazılıq yaradır. Görünür, Bakı Şəhər İcra Hakimiyyəti də bu nüansları nəzərə alaraq mitinqə icazə verməyib. Düşünürəm ki, burada məqsəd hansısa hüquqları məhdudlaşdırmaq deyil, tam əksinə ümumi ictimai mənafeyi təmin etməkdir. Biz bundan əvvəlki mitinqlə bağlı xeyli sayda qanun pozuntusu faktları bilirik ki, onların araşdırılması və təkrar olunmaması üçün müvafiq tədbirlərin görülməsi lazımdır. Ona görə də elə bir xüsusi ictimai sifariş olmadan mütləq mitinq keçirməyə cəhd etmək də doğru deyil. Hazırda çoxsaylı informasiya və internet resursları var ki, onlar vasitəsilə istənilən müxalif fikri geniş auditoriyaya kütləvi şəkildə çatdırmaq olur. Böyük şəhərlərdə ictimai ahəngdarlığı pozmamaq üçün belə yeni metodlardan istifadə etmək daha məqbul hesab edilə bilər".**

# YAP Sədərək rayon təşkilatı Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbir keçirib





Yeni Azərbaycan Partiyası (YAP) Sədərək rayon təşkilatı tərəfindən Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı Sədərək rayon Mədəniyyət Sarayında tədbir keçirilib.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbirdə çıxış edən YAP Sədərək rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov qeyd edib ki, Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir: **"Ona görə də beynəlxalq birlik bəşəriyyət əleyhinə törədilmiş bu faciəyə adekvat qiymət verməli, cinayətkarlar cəzalandırılmalıdırlar. Məlumdur ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul edib. Sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlanıb. Eyni zamanda, Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni vəşhiliklərinin beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi müəyyənləşdirilib. Ulu öndərin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir".**

A.Qasımov əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində xeyli iş görülüb, xarici dillərdə kitablar, sənədlər dərc olunub: **"Bu işdə Heydər Əliyev Fondunun gördüyü işlərin nəticəsi də göz qabağındadır. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası bu baxımdan xüsusi qeyd edilməlidir. Hər il olduğu kimi bu il də Azərbaycanın bütün regionlarında və xarici ölkələrdə Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir, bu qanlı terror aktı nəticəsində həyatını itirmiş insanların xatirəsi yad edilir".**

Tədbirdə çıxış edənlər bu qanlı soyqırımı aktının erməni şovinizminin əsl mahiyyətini növbəti dəfə bütün çılpaqlığı ilə ortaya qoyduğunu diqqətə çatdırıblar. Sonda Xocalı soyqırımına aid film izlənilib.

# Radikal ünsürlər icazəli mitinqlərdən sonra nəqliyyatın normal fəaliyyətini, sakinlərin dincliyini pozan, ictimai təhlükəsizlik əleyhinə olan əməllər törədirlər

## *Mitinqin təşkilatçıları belə halların təkrarlanmayacağı barədə üzərlərinə heç bir öhdəlik götürmür və bunda maraqlı deyillər*

Xəbər verildiyi kimi, Bakı Şəhər İcra Hakimiyyəti qondarma "Milli şura"nın fevralın 23-də keçirmək istədiyi mitinqə icazə verməyib. Buna səbəb yanvarın 19-da icazə verilmiş mitinqdən sonra baş verən asayiş pozğunluğu, o cümlədən sözügedən mitinqdən sonra 200-dən artıq ayrı-ayrı təşkilat və vətəndaşların mitinqə icazə verilməməsi üçün etdiyi müraciətlər, habelə Bakı şəhər Baş Polis İdarəsinin eyni məzmunlu xahişi olub. Xatırladaq ki, yanvarın 19-da keçirilən icazəli mitinqdən sonra bəzi toplantı iştirakçılarının nəqliyyatın normal fəaliyyətini, sakinlərin dincliyini pozan, ictimai təhlükəsizlik əleyhinə olan əməllər törətmələri və polisin bu hərəkətlərin dayandırılması barədə qanuni tələblərinə qarşı tabesizlik göstərmələri vətəndaşların haqlı narazılığına səbəb olub. Eləcə də sözügedən mitinqdə ictimai asayişin pozulması, mitinq iştirakçılarının nəqliyyatın hərəkətinə maneçilik törətməsi, asayiş keşikçilərinə qarşı sərt davranış və onların qanini tələblərinə müqavimət göstərilməsi faktlarının araşdırılması da hələ başa çatmayıb.



Qeyd olunmalıdır ki, bu insanlar sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini normal şəkildə çatdırmaq qabiliyyətində deyillər. Çünki bu dağıdıcı ünsürlər hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar. 25 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaq yorucu səs tembrləri yenidən təkrarlanır. Digər tərəfdən, radikal ünsürlər elə düşünürlər ki, "sərbəst toplaşma azadlığı" digər insanların hüquqlarını da pozmağa "imkan verir". Amma heç də elə deyil. Mitinqdən çıxanların yolları kəsməsi, hətta avtobusların, nəqliyyat vasitələrinin hərəkətinə açıq və qəsdən maneçilik törətməsi və həmin əraziyə yaxın yaşayan insanların istirahət hüququnu pozması konkret olaraq qanun pozuntusudur.

Ümumiyyətlə, bu gün öz yalanları ilə ictimai rəyi çaşdırmağa, xarici antimilli mərkəzlərin sifarişlərini yetirməyə niyyətlənən Əli Kərimli və onun kimi siyasi alverlə məşğul olanların dağıdıcı zehniyyəti dəyişməyib. 1992-ci ildə xalqın, dövlətin başına hansı oyunları açdıqlarını, ölkənin müstəqilliyini təhdid altına alacaq təhlükələr yaratdıqlarını dilə gətirməyən Əli Kərimli cəmisi bir illik hakimiyyətləri dövründə Azərbaycana 50 illik ziyanlar vurduqlarını niyə mitinq tribunalarından səsləndirmir? Axı həmin dövr Azərbaycan xalqının yaddaşındadır. AXC-"Müsavat" hakimiyyətinin nümayəndələrinin hakimiyyət uğrunda savaşlarının vətəndaş müharibəsinə gətirib çıxarması, ölkədə iqtisadi tənəzzülün yaşanması, silahlı birləşmələrin cəbhə xəttində deyil, həmin dövrün hakimiyyət nümayəndələrinin kürsüsünün qorunması üçün təlimatlandırılması haqqında faktları gizlətmək mümkün deyil. Bəli, bəzi maraqlı xarici qüvvələrin oyuncağına çevrilmiş, ölkə daxilində özünü "müxalifət" qismində təqdim etməyə cəhd göstərən dağıdıcıların ölkəmizdə bərqərar olan demokratik prinsiplərə kölgə salmaq üçün erməniпərəstlərin "mətbəxi"ndə hazırlanan yalanları yaymağa çalışması onların siyasi kimliyini bir daha üzə çıxarır. Bu aksiyalar Azərbaycanın klassik küçə-meydan müxalifətinin xaricə sığınan anti-Azərbaycan qüvvələri ilə birlikdə təşkil etdiyi "ortaq tədbirlərdir". Bu gün yalnız dağıdıcılığı özünə "siyasi yol" kimi seçənlərin irəli sürdükləri iddialar bir daha təsdiq edir ki, onlar hələ də revanşizm ab-havasındadırlar, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər. Bu mənada onların keçirilən hər bir mitinqdən sonra sabitliyin və qanunun pozulmasına yönəlik addımlar atması da gözlənilən haldır. O baxımdan, fevralın 23-də mitinq keçirmək üçün müraciət edən, özünü bu mitinqin təşkilatçısı qismində irəli sürənlər mitinq iştirakçılarının hər hansı qanun pozuntusuna yol verməyəcəyi və aksiyanın idarə olunacağı barədə üzərlərinə öhdəlik götürməlidirlər. Mitinqin təşkilatçıları isə belə halların təkrarlanmayacağı barədə üzərlərinə heç bir məsuliyyət götürmürlər və bunda maraqlı deyillər. Bu isə onların bu mitinqləri şəxsi maraqlarına vasitə olaraq gördüklərini və qarşıdurma yaratmaq üçün istifadə etdiklərini bir daha təsdiqləyir.

**Pərviz SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Ölkəmizdə yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı atılan addımlar davamlı xarakter daşıyır

## *2018-ci ildə respublikanın 43 şəhər və rayonunda 150 yaşayış məntəqəsi, həmçinin 3 rayonda məcburi köçkünlərin yaşadığı 4 qəsəbə təbii qazla təmin edilib*



Son 15 ildə bütün ölkə üzrə intensiv şəkildə həyata keçirilən yüksək səviyyəli infrastruktur quruculuğu Azərbaycanın dinamik iqtisadi inkişafını və insanların həyat səviyyəsinin yüksəlməsini şərtləndirən mühüm amillərdən biri qismində çıxış edir. Belə ki, bəhs olunan dövrdə paytaxt Bakıda və bölgələrdə reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Və dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan müxtəlif təyinatlı infrastruktur obyektləri bundan sonra onilliklər boyu Azərbaycan xalqına, dövlətimizə xidmət göstərəcək.

Bildirmək yerinə düşər ki, ölkəmizdə aparılan müasir infrastruktur quruculuğu həmçinin yaşayış məntəqələrinin qazlaşdırlmasında da öz əksini tapıb. Ümumiyyətlə son 15 ildə ölkə üzrə "mavi yanacaq" təminatında vəziyyətin əhəmiyyətli dərəcədə yaxşılaşması diqqətəlayiq haldır. Bəhs olunan dövrdə müvafiq Dövlət proqramları çərçivəsində atılan addımlar, həmçinin reallaşdırılan layihələr nəticəsində regionların "mavi yanacaq" təminatı yaxşılaşıb, hətta əvvəllər heç vaxt qazlaşdırılmamış yaşayış məntəqələri də qazlaşdırılıb. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı çıxışında bu məqama toxunan Prezident İlham Əliyev bildirib ki, ölkəmizdə təbii qaz ilə təminat 15 il bundan əvvəl təxminən 50 faiz səviyyəsində idi, bu gün isə 95 faizdir. **"...Ancaq, əlbəttə, bu, o demək deyil ki, bu, bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırma aparan ölkələr o qədər də çox deyil. Yəni, biz son illər ərzində qazlaşdırma ilə bağlı əsas problemləri həll etdik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır".**

Yeri gəlmişkən, "Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamının və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində 2018-ci ildə respublikanın 43 şəhər və rayonunda 150 yaşayış məntəqəsi, həmçinin 3 rayonda məcburi köçkünlərin yaşadığı 4 qəsəbə təbii qazla təmin edilib. Eyni zamanda, cari ilin yanvar ayı ərzində çoxmərtəbəli binalar üzrə 1763 mənzildə təbii qazın açılması təmin olunub. "Azəriqaz" İstehsalat Birliyi çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Bu barədə verilən məlumatda deyilir ki, görülmüş işlərin nəticəsində "Azəriqaz" bu ilin yanvar ayı ərzində hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan çoxmərtəbəli binalar üzrə təbii qazın verilməsini təmin edib. Həmin binalarda ümumilikdə 1763 ailə yaşayır. "Azəriqaz" təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

Bundan başqa, cari ilin yanvarında həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 4 rayon üzrə 14 yaşayış məntəqəsində qazlaşdırma işlərinə başlanılıb. Birlikdən bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədilə "Azəriqaz" tərəfindən təxirəsalınmaz işlər həyata keçirilir. Belə ki, əhali istehlakçılarının mənzillərində istismar müddəti başa çatmış məişət qaz sayğacları yenisi ilə əvəz olunur, yeni qaz kəmərləri çəkilir və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqları yeniləri ilə əvəz edilir. İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün birlik tərəfindən bu ilin yanvarında 17,1 kilometr yeni qaz kəməri çəkilib, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 36,1 kilometr qaz kəməri əsaslı təmir olunub.

Xəbərdə də bildirildiyi kimi, bu ilin yanvar ayında Gədəbəy rayonu üzrə 6, İsmayıllı rayonu üzrə bir, Ağsu rayonu üzrə 5 və Şamaxı rayonu üzrə isə 2 olmaqla ümumilikdə 14 yaşayış məntəqəsində qazlaşdırma işlərinə başlanılıb. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası olaraq, son 5 ildə digər rayonlar kimi, Oğuz rayonunun yaşayış məntəqələrinin də mərhələli şəkildə qazlaşdırılması məqsədilə zəruri işlər görülüb. 2014-2018-ci illərdə Oğuzun 13 yaşayış məntəqəsi qazlaşdırılıb, 3696 abonent təbii qazla təmin olunub. Qazlaşma nəticəsində bu kəndlərdə yaşayan 21 min nəfərədək əhalinin məişət problemləri öz həllini tapıb. Hazırda rayonun 33 yaşayış məntəqəsindən 25-nin əhalisi "mavi yanacaq"dan istifadə edir. Əhali abonentləri üzrə qazlaşma 77 faizə yaxındır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən növbəti, dördüncü dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası olaraq, növbəti illərdə rayonun qalan 8 yaşayış məntəqəsinin də mərhələli şəkildə qazlaşdırılması nəzərdə tutulur.

Mingəçevir şəhərində isə təbii qaz kəmərləri yeniləri ilə əvəzlənir. Abonentlərin dayanıqlı, fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə "Azəriqaz" İstehsalat Birliyində təxirəsalınmaz işlər həyata keçirilir və yarana biləcək problemlərin operativ həlli istiqamətində zəruri tədbirlər görülür. Regionların qaz təchizatının yaxşılaşdırılması ilə əlaqədar aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində Mingəçevir şəhəri Kür çayının sahilində yerləşən kollektordan şəhər istiqamətində diametri 273 millimetrlik orta təzyiqli yeraltı qaz kəmərinin korroziyaya uğramış 577 metr hissəsinin diametri 315 millimetrlik polietilen qaz kəməri ilə əvəzlənməsi işlərinə başlanılıb. Yenidənqurma işlərinin qısa zamanda başa çatdırılması üçün müvafiq tədbirlər görülür. İşlər başa çatdırıldıqdan sonra təbii qaz istehlakçılarının tələb olunan təzyiqdə, keyfiyyətli və fasiləsiz təbii qazla təminatı üçün əlavə imkan yaradılacaq.

2018-ci ildə Qusar rayonunda Piral və Cibir kəndləri qazlaşdırılaraq 860 evə təbii qaz verilib. Bu il rayonda daha 3 kəndin qazlaşdırılması, şəhərin yeni yaşayış massivlərində və 8 kənddə təzə məhəllələrdə qaz xətlərinin çəkilməsi və 3 kənddə istismara yararsız vəziyyətə düşən xətlərin dəyişdirilməsi nəzərdə tutulur.

Eyni zamanda Quba rayonunun Güneyməhlə və Ərməki kəndlərinə təbii qaz xətti çəkilərək 230 abonent "mavi yanacaq"la təmin edilib.

Sabirabad rayonunda da ötən il əhalinin təbii qazla təminatını yaxşılaşdırmaq məqsədilə görülmüş tədbirlər nəticəsində rayonun mərkəzinə və 62 kəndə qaz verilişi təmin olunub. Hesabat ilində Yuxarı Axtaçı, Yastıqobu kəndlərinə və Rüstəmli kəndində Zəngilan rayonundan olan məcburi köçkünlər üçün salınmış qəsəbəyə təbii qaz verilib, qalan 12 kəndin qazlaşdırılması üçün layihələndirmə işlərinə başlanılıb.

Qazlaşdırma ilə bağlı problemlərin aradan qaldırılması istiqamətində Naxçıvan Muxtar Respublikasında da mühüm tədbirlər görülür. "Naxçıvanqaz" İstehsalat Birliyi muxtar respublikada 86 min 377 əhali abonentin, kommunal büdcə təşkilatları üzrə 924, qeyri-dövlət təşkilatları üzrə 1403, sənaye üzrə 143 və enerji istehsal edən müəssisələr üzrə 2 (qaz turbin və modul elektrik stansiyaları), ümumilikdə isə 2472 qeyri-əhali abonentin təbii qazla təminatına xidmət göstərir. Ötən il 982 abonent, o cümlədən 862 əhali və 120 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Muxtar respublikanın qaz təsərrüfatı şəbəkəsində qaz analizatorlar və dedektorlar vasitəsilə aşkarlanan qaz sızmaları texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılıb.

Muxtar respublikanın şəhər, rayon qaz-istismar idarələrinin qəza-dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə daxil olan çağırışlar öz həllini tapıb. Abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 44 min 321 ədəd mühafizə qutusu quraşdırılıb.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkart tipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər də davam etdirilir. Ümumilikdə, 17 min 525 ədəd, o cümlədən ötən il 950 smartkart tipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Həmin qaz sayğaclarının diaqnostik müayinəsi, kompüter vasitəsilə test edilməsi və ortaya çıxan nöqsanların aradan qaldırılması üçün xidmət stansiyası təşkil olunub.

Respublikamızın hər yerində olduğu kimi, cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrində də infrastrukturun yaxşılaşdırılması, sosial layihələrin icrası, əhalinin sosial rifah halının yüksəldilməsi daim dövlətin diqqət mərkəzindədir. Belə layihələrdən biri də istehlakçıların fasiləsiz və keyfiyyətli təbii qazla təchiz edilməsi, yaşayış məntəqələrinin qazlaşdırılmasıdır. Bu istiqamətdə SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi (İB) tərəfindən əvvəlki illərdə başlanılmış işlər 2018-ci ildə də davam etdirilib. Qeyd edək ki, son beş ildə Qarabağ bölgəsində 39 yaşayış məntəqəsi qazlaşdırılıb. Təkcə yola saldığımız 2018-ci ildə Tərtər rayonunun Soyulan, Alışarlı, Aşağı Qapanlı, Hacallı, Rəcəbli, Kovdadıq, Bildirçinli, Umudlu kəndlərinə təbii qaz verilib, 428 fərdi ev "mavi yanacaq"la təmin edilib. Bundan əlavə, ötən il Ağdam rayonunun Mirzələr qış otlağı və Ergi adlanan ərazilərində Laçın, Ağdam və Şuşa rayonlarından olan məcburi köçkünlərin məskunlaşdığı iki qəsəbədə 468 fərdi ev qazlaşdırılıb. Görülən tədbirlər sayəsində Ağdam, Füzuli və Tərtər rayonlarının qazlaşdırılması başa çatdırılıb. Növbəti mərhələdə təbii qazla təmin olunan yaşayış məntəqələrində yeni yaşayış massivlərinin qazlaşdırılması məsələsi gündəmdə olacaq.

**Pərviz SADAYOĞLU**

# "Könüllülər Parlamenti"nin plenar iclası keçirilib



Fevralın 21-də Milli Məclisdə "Könüllülər Parlamenti"nin plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, parlamentin sədri Kamran Əliyev iclası açaraq Milli Məclisin və "ASAN Könüllüləri" Təşkilatının birgə əməkdaşlığı ilə 4 gün davam edən layihə çərçivəsində "Könüllülər Parlamenti"nin komitə iclaslarının keçirildiyini deyib. Bu iclaslarda müxtəlifyönümlü məsələləri əhatə edən bir sıra qanun layihələri hazırlanıb, onların müzakirəsi aparılıb, təkliflər irəli sürülüb.

Plenar iclasda gündəliyə daxil edilmiş qanun layihələrini komitə sədrləri Nicat Şükürlü, Könül Xələfzadə, Namiq Ağayev, Elvin Əhmədzadə, Vüsal İsgəndərov, Könül Sərkərnamazova, Müşfiq Bağırzadə təqdim ediblər.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən "Nağdsız hesablaşmalar haqqında" qanuna bir sıra dəyişikliklər təklif edilib. Müzakirələr zamanı dəyişikliklərə müsbət münasibət bildirilib və qanun layihəsi qəbul olunub.

Gənclər və idman komitəsinin hazırladığı "Xüsusi qayğıya ehtiyacı olan gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi haqqında" qanun layihəsi ətrafında geniş fikir mübadiləsi aparılıb və qanun qəbul edilib.

Aqrar siyasət komitəsində hazırlanan "Aqrar islahatın əsasları haqqında" qanuna edilən dəyişikliklər də məqbul sayılıb və qəbul olunub.

Mədəniyyət komitəsinin hazırladığı "Muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunda da bir sıra aktual məsələlər öz əksini tapıb. Könüllü deputatlar sənədi təsdiq ediblər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin hazırladığı "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" qanuna dəyişikliklərin edilməsi barədə, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təqdim etdiyi "Təbii ehtiyatlar və enerji resurslarından istifadəsi haqqında", Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində hazırlanan "Kibertəhlükəsizlik haqqında" qanun layihələrinin isə daha da təkmilləşdirilməsi tövsiyə olunub.

"Könüllülər Parlamenti"nin sədri iclasa yekun vuraraq gənclərin təşəbbüsü ilə həyata keçirilən bu layihənin əhəmiyyəti barədə danışıb, tədbirin müvəffəqiyyətlə başa çatması münasibətilə iştirakçıları təbrik edib.

# ÜTT rəsmisi: Azərbaycanın üzvlüyü ilə bağlı UNEC-də faydalı müzakirələr aparıldı





Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük prosesi və ticarət siyasətinə dəstək" mövzusuna həsr olunan tədbir keçirilib.

Azərbaycan Respublikası UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin təşkilatçılığı ilə keçirilən tədbirdə ÜTT-nin texniki yardım və koordinasiya şöbəsinin rəhbəri Dr. Martin və universitetin professor-müəllim heyəti iştirak edib.

UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru Sənnur Əliyev bildirib ki, Azərbaycanın ÜTT-yə üzvlük prosesinə və ticarət siyasətinə dəstək olmaq məqsədilə universitetdə dövlət qurumlarının nümayəndələrinin və Dr. Martin Smitzin iştirakı ilə seminar və dəyirmi masalar təşkil olunub, müzakirələr aparılıb.

UNEC-də olmaqdan məmnunluğunu ifadə edən Dr. Martin Smitz universitetdə 3 gün ərzində çox səmərəli işgüzar görüşlərin keçirildiyini diqqətə çatdırıb. Aparılan müzakirələri, eləcə də universitetin professor-müəllim heyəti ilə görüşü Azərbaycanın ÜTT-yə üzvlüyünün sürətləndirilməsi istiqamətində müsbət addım kimi dəyərləndirib. Azərbaycanın təşkilata 1997-ci ildən üzvlüklə bağlı müraciət etdiyini vurğulayan məruzəçi üzvlük prosesi ilə bağlı ikitərəfli, həm də çoxtərəfli danışıqların uğurla davam etdiyini, həmçinin milli qanunvericiliyin ÜTT-nin müvafiq sazişlərinin tələblərinə uyğunlaşdırılması istiqamətində işlərin aparıldığını qeyd edib. Təşkilat rəsmisi ÜTT-nin Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirib.

Tədbirdə professor və müəllimlərin ÜTT-yə üzvlüyün əhəmiyyəti barədə suallarını cavablandıran qonaq bu əməkdaşlığın dünya ölkələri ilə daha sıx ticarət əlaqələrinin qurulmasına, yeni bazarlara çıxış imkanı əldə olunmasına, daxili bazarın liberallaşdırılmasına, məhsulun rəqabətqabiliyyətliliyinin artırılmasına, eləcə də qlobal dəyərlər zəncirinə qoşulmağa, xarici investisiyaların cəlb olunmasına və digər müsbət iqtisadi amillərə xidmət etdiyini bildirib.

Qeyd edək ki, 3 gün ərzində davam edən beynəlxalq seminarlarda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Dövlət Gömrük Komitəsinin Akademiyası və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

# "Nar" ölkə üçün əhəmiyyətli sosial layihələrini bu il də davam etdirəcək




Ölkənin ən gənc mobil operatoru olan "Nar", şəbəkənin genişləndirilməsi, yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət strategiyası ilə yanaşı, ölkə üçün əhəmiyyətli sosial layihələr reallaşdırmaqdadır. Mobil operator özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində fiziki məhdudiyyətli insanlara qayğı, onların cəmiyyətə inteqrasiyası, eyni zamanda təhsil və maariflənmənin inkişafı, gənclər arasında idmanın təbliği istiqamətində sosial layihələrini bu il də davam etdirəcək. Xüsusilə də fiziki məhdudiyyətli insanların işlə təmin olunması, onların müxtəlif peşə bacarıqlarına yiyələnməsi istiqamətində müxtəlif addımlar atacaq. Qeyd edək ki, "Nar" ötən il 21 sosial layihəni uğurla icra edib.

"Azerfon"un İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, "Nar" telekommunikasiya sahəsinə irihəcmli investisiyalar yatırmaqla yanaşı, əhəmiyyətli sosial layihələr həyata keçirməkdə davam edəcək: **"Nar" telekommunikasiya sahəsi ilə yanaşı, cəmiyyət üçün həssas olan məsələlərdə iştirak etməyi özünə borc bilir. "Nar" olaraq, korporativ sosial məsuliyyət strategiyası çərçivəsində bu il də əsas hədəfimiz fiziki məhdudiyyətli insanlara dəstək, eləcə də elm və təhsilin təbliğidir".**

Xatırladaq ki, "Nar" ötən il bir çox uğurlu layihələr icra edib. Autizm sindromundan əziyyət çəkən, eşitmə məhdudiyyəti olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqlara dəstək olub. Mobil operator eyni zamanda, gənclərdə oxumaq həvəsini artırmaq, gənc kadrların formalaşması üçün müsabiqələrə, intellektual yarışlara dəstəyini nümayiş etdirib, müxtəlif universitetlərlə əməkdaşlıq qurub və onların təqaüd proqramında iştirak edib.

Mobil operatorun KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU